www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 fevral 2016-cı il Cümə № 39 (6360) Qiyməti 60 qəpik

Xəbər

## 170 min dollarlıq rüşvət qalmaqalının istintaqı başladı

yazısı səh.7-də

Gündəm

### Azərbaycan İslam koalisiyasına qoşula bilər



Türkiyədəki son qanlı terror aktlarından sonra rəsmi Bakı məsələyə yenidən baxmaq qərarı verib; nazir Elmar Məmmədyarov öz müavinini təkzib etdi

yazısı səh.9-da

### Azərbaycanın qapıları ABŞ donor təşkilatlarının üzünə hələ də bağlıdır

yazısı səh.6-da

### Konqresdəki sanksiya layihəsinə daha iki konqresmen qoşulub

yazısı səh.9-da

### Minsk Qrupu - işğalçı Ermənistan üçün "xilas kəməri"

yazısı səh.11-də

### Yeni büdcə sahibkarların cibinə "yüklənir"

yazısı səh.4-də

### DYP niyə qadın yol polisinin olmamasının səbəbini izah etdi

yazısı səh.15-də

### Banklar niyə dollar yığır-mart ayına hazırlıq?...

yazısı səh.12-də

### Çəkiclə polis maşınını əzənə cinayət işi qaldırıldı

yazısı səh.15-də

### Tiflisdən Avropaya uçuş 40, Bakıdan 351 avrodur

yazısı səh.13-də

### Deputatla icra başçısı arasında qalmaqal bitdimi?

yazısı səh.3-də

### Rusiyanın hərbi təlimlərinə ekspertdən sensasion şərh

yazısı səh.8-də

## Ərdoğanın Bakı səfərini əngəlləyən müdhiş olayın pərdəarxası

# TÜRKİYƏDƏ TERROR ŞOKU - AZƏRBAYCAN DA TƏHDİD ALTINDA?

Onlarla insanın ölümünə gətirən faciədə Rusiya izi də istisna edilmir; Türkiyə terror havadarlarına xəbərdarlıq elədi; Azərbaycan prezidenti İlham Əliyev "Yanınızdayıq" dedi; **təhlükəsizlik eksperti:** "Terroru Bakının özündə törədə bilərdilər...."




yazısı səh.5-də

# Tağı Əhmədovun milyonu bankda batıb

Bakı Metropoliteninin sabiq rəisi bankların birinə vaxtilə külli miqdarda əmanət yatırıbmış; metroda müxtəlif vasitələrlə dövlət büdcəsindən və vergidən gizlədilərək mənimsənilən vəsaitlər yenidən gündəmə gəlib yazısı səh.6-da



*Niyazi Mehdi:*

### "Bizim dövrün gəncləri daha çox görməmiş idilər"

yazısı səh.10-da



### Heydər Babayev "Çudo Peçka" işçilərinin məvacibini vermək istəmir

yazısı səh.12-də



*Ellada Məmmədli:*

### "Hakimiyyət Müsavatın indiki rəhbərliyinin qələbəsini təmin etdi"

yazısı səh.7-də




# Bakıda yoxa çıxan məktəblilər tapıldı

**Bakıda itkin düşən iki məktəblidən hələ də xəbər yoxdur. Hüquq-mühafizə orqanları artıq uşaqların məktəbdən çıxaraq hansı istiqamətə getmələrini əks etdirən görüntüləri əldə edib. Görüntülərdən bəlli olur ki, Nizami rayon 32 saylı orta məktəbin rus bölməsində 5-ci sinifdə təhsil alan 11 yaşlı Şamil Babayev və İsmayıl Şəfiyev dünən saat 17:20 radələrində məktəbdən çıxıb.**

Onlar piyada üzü "Neftçilər" metro stansiyası istiqamətinə gedib və "Dakar" dairəsi yaxınlığında kameraların nəzarət dairəsindən çıxıblar. Məktəblilər hərəkət edərək 25-ci Polis Bölməsinin ərazisindən 24-cü Polis Bölməsinin ərazisinə keçiblər.

Polis görüntülərdən belə qənaətə gəlib ki, yeniyetmələr gərgin psixoloji durumda olmayıb və gəzə-gəzə məktəbdən uzaqlaşıblar.

İsmayıl Şəfiyev dərsə getməmişdən əvvəl evdə özünə məxsus kassasından 100 manat götürüb.

Hazırda polis məktəblilərin axtarışını davam etdirir. Onların xarakterik əlamətləri və fotoları aidiyyəti idarələrə göndərilib.

Bildirilir ki, itkin düşən hər iki məktəblinin atası azərbaycanlı, anası isə rusdur.

**P.S.** *"Qafqazinfo" xəbər verir ki, oğlanları Hövsan ərazisindən tapıblar. Uşaqlar sadəcə gəzməyə çıxdıqlarını deyiblər.*

# Mart ayında 9 gün bayram olacaq

**Mart ayında 9 gün qeyri-iş günü olacaq. APA-nın məlumatına görə, 8 Mart - Beynəlxalq Qadınlar Günü qeyri-iş günüdür. Nazirlər Kabinetinin qərarına əsasən isə 2016-cı ildə 20, 21, 22, 23, 24 mart Novruz bayramıdır.**

Novruz bayramında 20 mart bazar gününə təsadüf etdiyindən Əmək Məcəlləsinə əsasən iş və istirahət günlərinin yerləri dəyişdiriləcək, 25 mart qeyri-iş günü olacaq.

26 və 27 mart tarixləri isə şənbə və bazar günlərinə təsadüf etdiyindən Novruz bayramında ardıcıl 8 gün - 20, 21, 22, 23, 24, 25, 26 və 27 mart tarixləri qeyri-iş günüdür.

Beləliklə, mart ayında ümumilikdə 9 gün qeyri-iş günü olacaq.

# Rusiya rəsmisi Azərbaycanı ittiham etdi

**Rusiya Veterinar və Fitosanitar Nəzarəti üzrə Federal Xidməti ("Rosselxodnadzor") Azərbaycanı Türkiyə mallarını öz ərazisi vasitəsilə Rusiyaya buraxmaqda ittiham edib. Modern.az saytı Rusiya KİV-nə istinadən xəbər verir ki, qurum rəhbəri Azərbaycanın qısa müddətdə Rusiyaya tomat ixracını kəskin artırmasının şübhəli göründüyünü deyib.**

"Azərbaycan və İranın Türkiyənin bitkiçilik məhsullarının öz ərazisi ilə Rusiyaya buraxılmaması barədə öhdəliklərini yoxlayan zaman müəyyən olunub ki, təkcə yanvar ayında Azərbaycandan Rusiyaya tomat ixracı 5 dəfə artıb".

Sergey Dankvertin sözlərinə görə, fitosanitar sertifikatlarda Azərbaycan tərəfi məhsulun yerli mənşəyə malik olduğunu təsdiq edib. "Rosselxodnadzor" artıq faktla bağlı Azərbaycan rəsmilərinə məktubla müraciət edib.

Federal xidmət Azərbaycandakı tomat istehsalı müəssisələrini təftiş etmək planlarını açıqlayıb.

## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# ABŞ səfirliyinin mətbuat katibi "Yeni Müsavat"da oldu

**Amerika Birləşmiş Ştatları səfirliyinin mətbuat katibi Nikolas Barnet fevralın 18-də "Yeni Müsavat" qəzetinin redaksiyasına gəlib. Qəzetin təsisçisi və baş redaktoru Rauf Arifoğlu ilə görüşən cənab Barnet söhbət zamanı medianın vəziyyəti, ölkədəki durum, Dağlıq Qarabağla bağlı müzakirələr aparıb.**

Baş redaktorla həmçinin rəhbəri olduğu qəzetin vəziyyəti barədə danışan mətbuat katibinə çap mediasının problemləri, onlayn medianın sürətli inkişafı barədə məlumat verilib. Amerikanın Azərbaycandakı prioritetləri mövzusunun da müzakirə edildiyi görüş zamanı mətbuat katibi maraqlı fikirlər səsləndirib.







# "LUKoil" "zapravkalar"ı benzinin qiymətini qaldırır

**"LUKoil" şirkəti Rusiyada aksiz vergisinin artımını nəzərə alaraq benzinin qiymətini bahalaşdıracaq.**

Bunu "LUKoil" şirkətinin vitse-prezidenti Vladimir Nekrasov deyib.

Onun sözlərinə görə, Rusiyada benzinin qiyməti 1 litr üçün azı 2 rubl artırılmalıdır: "Biz 15 milyon ton neft məhsulunu daxili bazarda satırıq. Aksiz vergisinin artımı ilə əlaqədar olaraq 1 yanvardan bu yana 30 milyard rubl itirdik. 1 apreldə aksizlərin artımı nəticəsində biz daha 30 milyard rubl itirəcəyik".

Rusiya Energetika Nazirliyindən isə bildirilib ki, vergi yükünün artırılması yanacağın dəyərinə təsir etməyəcək.

Baku.ws "LUKoil-Azərbaycan" şirkəti ilə əlaqə saxlayaraq benzinin bahalaşması qərarının Azərbaycan bazarına şamil olunub-olunmayacağını öyrənməyə çalışıb. Şirkətdən bildirilib ki, "LUKoil"in bu qərarı yalnız Rusiya bazarına aiddir: "Azərbaycanda neft məhsullarının topdan və pərakəndə satış qiymətləri Tarif (qiymət) Şurası tərəfindən tənzimlənir".

Sayt benzinin qiymətinin ucuzlaşması ilə bağlı təkliflərə münasibət öyrənmək üçün Tarif Şurası ilə də əlaqə saxlayıb. Qurumdan bildiriblər ki, yanacağın qiyməti ilə bağlı Tarif Şurasına heç bir müraciət daxil olmayıb: "Yaxın günlərdə də enerjidaşıyıcılarının qiymətinin qaldırılması ilə bağlı məsələ gündəmdə deyil".

# Ən real namizədlər Tramp və Klintondur



**"Ipsos" kompaniyasının keçirdiyi sosioloji sorğuya əsasən, ABŞ prezidenti postu uğrunda mübarizədə Respublika Partiyasından olan namizəd milyarder Donald Tramp öz rəqiblərini inamla qabaqlamaqda davam edir.**

Virtualaz.org "İnterfaks" agentliyinə istinadla xəbər verir ki, şənbə günü Şimali Karolinada keçiriləcək praymeriz ərəfəsində respondentlərin 40 faizi Donald Trampı dəstəklədiyini bildirib. Onun yaxın rəqibi Ted Kruz 17, Mark Rubio və Ben Karson 11, Ceb Buş isə cəmi 8 faiz səs toplaya biliblər.

Sorğunun nəticəsinə görə, Demokratiya Partiyasından namizədliyə iddialı keçmiş dövlət katibi Hillari Klinton rəqibi senator Berni Sandersi 10 faiz geridə qoyub. Xatırladaq ki, xanım Klinton bundan əvvəl Nyu-Hempşirdə keçirilən praymerizdə Sandersə məğlub olmuşdu.

Tramp və Klintonun namizəd olacağı təqdirdə seçkilərdə kimin qalib gələcəyi sualının cavabında isə respondentlərin 44 faizi Klintonun, 37 faizi isə Trampın lehinə səs verib.

Sorğu Respublika Partiyasının 476, Demokratiya Partiyasının isə 543 üzvü arasında keçirilib.

# Azərbaycan spirtli içki idxalını 3 dəfə azaldıb

**Bu ilin yanvar ayı ərzində Azərbaycandan spirtli içkilərin ixracında mənfi illik dinamika müşahidə edilib. Dövlət Gömrük Komitəsindən "Report"a verilən xəbərə görə, 2016-cı ilin yanvarında 203,05 min ABŞ dolları dəyərində spirtli və spirtsiz içki ixrac edilib ki, bu da 2015-ci ilin müvafiq ayına nisbətən 124,06 min dollar yaxud 37,93% azdır.**

Hesabat dövründə spirtli və spirtsiz içkilər ümumi ixracın 0,03%-ni təşkil edib.

Komitədən bildirilib ki, hesabat dövründə Azərbaycana ümumilikdə 1 179,30 min dollar məbləğində spirtli və spirtsiz içkilər, həmçinin sirkə idxal edilib. Bu isə 2015-ci illə müqayisədə 2 254,89 min dollar və ya 2,9 dəfə azdır. Nəticədə bu məhsulların ölkənin ümumi idxalında payı 0,27% təşkil edib.

# Qar yağacaq

**Fevralın 19-da Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı, gecə bəzi yerlərdə sulu qara keçəcəyi gözlənilir. Arabir güclənən şimal-qərb küləyi gündüz mülayim cənub küləyi ilə əvəz olunacaq.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Qafqazinfo"ya verilən məlumata görə, havanın temperaturu Abşeron yarımadasında gecə 1-3, gündüz 4-7, Bakıda gecə 1-3, gündüz 5-7 dərəcə isti olacaq.

Atmosfer təzyiqi normadan yüksək 770 mm civə sütunundan 765 mm civə sütununa enəcək, nisbi rütubət 85-95 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında isə sabah hava şəraitinin arabir yağıntılı olacağı, qar yağacağı, gündüz yağıntıda fasilə olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 4-9 dərəcə isti, dağlarda gecə 3-8, yüksək dağlıq ərazilərdə gecə 8-12 dərəcə şaxta, gündüz 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti olacaq.

# İlhamə Quliyeva məsələsi Rüstəm Usubovun nəzarətinə keçir

**Gələn həftə xalq artisti İlhamə Quliyevanın köməkçisi, hazırda həbsdə olan Mehriban Hüseynovanın həyat yoldaşı Tofiq Hüseynov və vəkili Vasif Mirzəyev baş prokurorun birinci müavini Rüstəm Usubovun qəbuluna gedəcək.**

Bu barədə aznews.az-a açıqlamasında M.Hüseynovanın vəkili deyib. Onun sözlərinə görə, görüş baş tutarsa, orada müəyyən məsələlərə aydınlıq gələcək: "Apelyasiya məhkəməsi oldu, amma onu buraxmadılar. Mehriban xanımın həyat yoldaşı onun barəsində olan cinayət işinin xitam olunması və azadlığa buraxılması üçün baş prokurora müraciət ünvanlayıb. Ümid edirik ki, ölkə rəhbərliyi və Baş Prokurorluq məsələyə reaksiya verəcək".

**Vəkil bildirib ki, M.Hüseynovanın əməlində heç bir cinayət tərkibi yoxdur:** "Əsassız və qanunsuz həbs olunub. Azərbaycan Respublikasının qanunvericiliyində soyğunçuluğa cəhd edən bir maddə nəzərdə tutulmayıb. Bu ittiham ona əsassız verilib və biz bunu sübut etməyə çalışırıq".

Qeyd edək ki, xalq artisti İlhamə Quliyevanın sabiq köməkçisi Mehriban Hüseynova bu il həbs olunub. Onun barəsində Cinayət Məcəlləsinin 29, 180-cı (Soyğunçuluğa cəhd) maddəsi ilə cinayət işi başlanıb.

# Putin Medvedyevi Ermənistana göndərir

**Rusiyanın baş naziri Dmitri Medvedyev cari ilin mart-aprel ayında Ermənistana səfər edəcək.**

"Report" Ermənistan KİV-inə istinadən xəbər verir ki, bunu ölkənin beynəlxalq iqtisadi inteqrasiya və islahatlar nazirinin müavini Suren Karayan bildirib.

Məlumata görə, Dmitri Medvedyev İrəvanda keçiriləcək Avrasiya İqtisadi İttifaqına üzv ölkələrin toplantısında iştirak edəcək.

Nazir müavininin sözlərinə görə, əldə edilən ilkin razılığa əsasən, həmin yığıncaq bu ilin mart, yaxud aprel ayında keçiriləcək.

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 39 (6360) 19 fevral 2016



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



**Azərbaycan "Dünyanın ən çətin viza alınan" 10 ölkəsi siyahısındadır. Bu barədə Böyük Britaniyanın "Wanderlust" jurnalında məlumat yayılıb. Jurnal Azərbaycana vizaların rəsmiləşdirilməsi müddətinin dörd-altı həftə olduğunu iddia edir. Məlumat ölkə mətbuatının da diqqətini cəlb edib.**

# Azərbaycanın viza problemi: XİN ittihamlarla razılaşmır

## Hikmət Hacıyev: ""Wanderlust" jurnalının siyahısı qərəzli xarakter daşıyır"

Bir sıra tanınmış politoloqlar da bildirirlər ki, turizmin inkişafına diqqət ayırmağa çalışan Azərbaycan üçün bu göstərici heç də ürəkaçan deyil. Xüsusən də postneft dönəmində turizmin inkişafı və xarici investorların ölkəyə cəlb edilməsi üçün sadələşdirilmiş viza rejiminin tətbiq edilməsi zəruridir.

Doğrudur, Azərbaycan hökuməti son vaxtlar viza şərtlərinin sadələşdirilməsi istiqamətində tədbirlər görüb. Məsələn, 2013-cü ilin noyabrında Vilnüs şəhərində Avropa Birliyi və Azərbaycan arasında "Şərq tərəfdaşlığı" sammiti çərçivəsində viza liberallaşdırılması, 28 fevral 2014-cü ildə isə readmissiya sazişi imzalanıb, on-line anket forması və ərizə qəbulu sahəsində mütərəqqi dəyişikliklər edilib. Lakin atılan addımlar bir çox problemlərin aradan qaldırılması üçün kifayət etmir.

Xüsusən də İran dövlətində yaşayan soydaşlarımız ölkəmizin viza rejiminin çətinliyindən şikayətlənirlər. Soydaşlarımız bildirirlər ki, iki ölkə arasında viza rejimi nə qədər sadələşdirilsə, bir o qədər gediş-gəliş artar, dostluq və ticarət əlaqələri daha da güclənər.

Bəs görəsən, Azərbaycan hökuməti niyə viza rejiminin liberallaşdırılmasına maraq göstərmir?

**Tanınmış politoloq, "Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev məsələnin 3 əsas səbəbi olduğunu deyir:** "Birinci səbəb, Azərbaycana başqa ölkələrdən qaçqınların gəlməsinin qabağını almaqdır. Statistikaya nəzər yetirsək görərik ki, əslində Azərbaycana qaçqın çox az gəlir. Məsələn, bu günədək Suriyadan cəmi 4 ailə gəlib. İkinci səbəb, xarici investorların ölkəyə gəlməsinin qabağını almaqdır. Hakimiyyət istəmir ki, başqaları bura gəlib investisiya qoysun. Bütün sahələrə hakimiyyət yalnız özü nəzarət etmək istəyir. Üçüncü səbəb, ölkəyə insan haqları ilə məşğul olan şəxslərin, jurnalistlərin gələ bilməsini əngəlləməkdir". **Politoloq qeyd edir ki, viza rejiminin çətinliyi turizmin inkişafını ləngidir:** "Son vaxtlar ölkəyə gələn turistlərin sayı xeyli azalıb. Normal hakimiyyət hər şeyi liberallaşdırar ki, investisiyalar qoyulsun, turistlər gəlsin, şərait yaradılsın və sairə".



Hikmət Hacıyev

**Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev isə açıqlamasında bildirib ki, ölkədəki viza sistemi kifayət qədər optimal xarakter daşıyır və asanlaşdırılmış qaydada tətbiq edilir:**

"Birinci növbədə Böyük Britaniyanın "Wanderlust" jurnalının hansı məlumatlar, faktlar əsasında belə bir siyahını tətbiq etməsi çox böyük suallar doğurur. Nazirlik tərəfindən dərhal bu məsələyə münasibət bildirildi və qeyd edildi ki, adıçəkilən jurnal tərəfindən hazırlanan siyahının heç bir əsası yoxdur və qərəzli xarakter daşıyır. Nəzərinizə çatdırmaq istəyirəm ki, "Wanderlust" jurnalının bir neçə əməkdaşı bir müddət bundan əvvəl Azərbaycanın işğal olunmuş ərazilərinə səfər etmişdi. Və onlar işğal edilmiş ərazilərimizi dırnaqarası şəkildə, turizm imkanları olan yer kimi qeyd etmişdilər.

Bunun üçün həmin jurnalın əməkdaşlarından biri ölkəmizin "arzuolunmaz siyahı"sına daxil edilib.

Qeyd edim ki, Azərbaycanın viza rejimi "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə əsaslanır. Bu sistemdə XİN-lə bərabər ölkəmizin digər aidiyyəti dövlət qurumları da iştirak edir. Belə ki, səfirliyimiz tərəfindən hər hansı viza sorğusu qəbul edilir və həmin sistemə yüklənilir. Sistem vasitəsilə də digər dövlət qurumlarını ora çıxış əldə edir, sənədlərə baxış həyata keçirilir və yekun cavab elektron formada bildirilir".

**Hikmət Hacıyev Azərbaycanda viza qanunvericiliyinin Miqrasiya Məcəlləsi ilə tənzimləndiyini bildirib:** "Məsələn, Azərbaycanda viza sorğularının müddəti 10 gündür, əlavə araşdırma tələb olunan təqdirdə isə 15 günə qədər çəkə bilər. Bu, kifayət qədər optimal vaxt müddətidir. Turistlər üçün elektron viza təşkil edilir və 10 gün ərzində baxılır. Əslində bu daha qısa müddətdə həyata keçirilir. Çünki 10 gün maksimum həddir. Şənbə-bazar günləri də icra müddətinə daxildir. Elektron vizanın həyata keçirilməsi ilə məşğul olan turizm şirkətləri isə Mədəniyyət və Turizm Nazirliyində akkreditasiyadan keçirlər. Bundan başqa, Azərbaycanın imzaladığı ikitərəfli və çoxtərəfli sazişlər də var. Məsələn, Azərbaycan və Avropa İttifaqı arasında vizanın sadələşdirilməsi haqqında qanun 1 sentyabr 2014-cü ildən qüvvədədir və qarşılıqlı şəkildə 10 gün ərzində vizaların rəsmiləşdirilməsi təmin olunur.

1 fevral 2016-cı il tarixindən etibarən isə Azərbaycan tərəfindən, Qətər, Oman, Səudiyyə Ərəbistanı, Bəhreyn, Küveyt, Yaponiya, Çin, Cənubi Koreya, Malayziya, Sinqapur və sairə ölkələrə sadələşdirilmiş viza rejimi tətbiq olunub. Həmin ölkələrin vətəndaşları Bakı Hava Limanında öz vizalarını ala bilərlər. Bu qayda 10 noyabr tarixindən etibarən Birləşmiş Ərəb Əmirliklərinin vətəndaşlarına şamil edilib. Türkiyə və İsrail vətəndaşları üçün də bu keçərlidir. Təbii ki, vizaların tətbiq olunmasında Azərbaycanda daxili əmək bazarının, ölkədəki təhlükəsizliyin qorunması və sairə digər meyarlar var. Bunlar da kompleks şəkildə nəzərdən keçirilir. Ümumilikdə bizim viza rejimimiz turizmin təşviqinə, biznes əlaqələrinin inkişafına xidmət edəcək bir formadadır".

**XİN əməkdaşı İran-Azərbaycan arasındakı viza rejimindən də söz açıb:** "İran İslam ölkəsinin vətəndaşlarına eyni qaydada viza rejimi tətbiq olunur. Real göstəricidir ki, Azərbaycana səyahət edən şəxslərin sayı ildən-ilə artır. Beləliklə, viza rejimi İran-Azərbaycan arasında dostluğa xidmət edəcək formadadır".

**"FLY Travel" şirkətinin rəhbəri Məmməd Əliyev isə bildirdi ki, bu il İrandan Azərbaycana gəlmək istəyən turist demək olar ki, yoxdur:** "3-4 il bundan əvvəl Novruz bayramı ərəfəsində İrandan çoxlu sayda insanlar, ailələr gələrdi. Onlar şəhərlərimizi gəzir, daxili turlara gedirdilər. Əlbəttə ki, bu da turizmin inkişafına xeyli təsir göstərirdi. Amma bu il İrandan demək olar ki, turist gəlmir".

**Şirkət rəhbəri onu da vurğuladı ki, hökumətin viza sahəsində gördüyü son tədbirlər də problemi aradan qaldıra bilmir:** "Heç bir dəyişiklik yoxdur. Sadəcə, əvvəl viza üçün 60 avro tələb olunurdusa, indi bu qiymət 35 avroya endirilib. Və yaxud əvvəllər xarici vətəndaşlar Azərbaycana gəlmək üçün vizaları 10 gün ərzində hazırlanırdısa, indi hava limanındaca əldə edə bilirlər. Lakin vizanın asanlaşdırılması üçün ancaq bu addım atılıb. Yeni heç bir şey yoxdur".

❑ Xalidə GƏRAY

# Deputatla icra başçısı arasında qalmaqal bitdimi?

## Fazil Mustafa: "Bir çox hallarda qaldırdığın işin səbəbkarı olan şəxslərin vəzifədə irəliləməsinin şahidi olursan"



Fazil Mustafa

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa bir neçə gün əvvəl Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədovla bağlı böyük rezonans doğuran bir açıqlama vermişdi. Deputat partiyasının Tərtər rayon təşkilatının sədrinin həbsində və ailəsində baş verən faciəyə görə icra başçısını günahlandırmışdı.**

Fazil Mustafa hazırda həbsdə olan Zülfüqar İbrahimovun Tərtər Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən şərlənərək həbs olunduğunu, şikəst qızının isə aylarla ata həsrəti çəkdikdən sonra dünyasını dəyişdiyini bildirmişdi.

Əvvəlcə onu xatırladaq ki, Z.İbrahimov və bir neçə şəxs ötən ilin mart ayında həbs olunublar. DİN və Baş Prokurorluğun yaydığı rəsmi məlumatda həmin şəxslər Tərtər ərazisində ayrı-ayrı vətəndaşların ölkə hüdudlarından kənarda qeyri-qanuni fəaliyyət göstərən silahlı birləşmələrin sıralarına qoşulmasını təşkil edən, dini dözümsüzlük və bölücülük təbliğatını aparan ekstremist yönümlü şəxslərdən ibarət mütəşəkkil cinayətkar dəstə yaratmaqda ittiham olunurlar.



Müstəqim Məmmədov

Deputatın silahdaşının həbsini bir daha ictimailəşdirməsinin səbəbi onun ailəsində baş verən faciə olmuşdu. Z.İbrahimovun şikəst qızı bir neçə gün əvvəl dünyasını dəyişib. Fazil Mustafa silahdaşının icra başçısının hikkəsi ilə haqsız tutulduğunu sübut etmək üçün əlindən gələni etməyə çalışdığını, ancaq qanunsuzluqların qarşısında sözünün keçərli olmadığını bildirmişdi.

Mövzunun aktuallığını nəzərə alaraq bu məsələyə yenidən qayıtdıq. Deputatın silahdaşının həbsi ilə bağlı yenidən DİN və Baş Prokurorluğa müraciət edib-etməyəcəyini soruşduq. F. Mustafa "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bundan sonra müvafiq qurumlara yenidən müraciət etməsinin heç bir mənası yoxdur: "Artıq cəza verilib və cəzanı həmin adam çəkir. Haqlı və ya haqsız onsuz da bu çiləni vətəndaş öz üzərinə götürüb. İndiki şəraitdə nəyisə dəyişmək imkanımız yoxdur. DİN və Baş Prokurorluqdan da bu məsələ ilə bağlı mənə heç bir reaksiya gəlmədi. Bizdə adətən hansı neqativ məsələni qaldırırsansa, bir çox hallarda qaldırdığın bu işin səbəbkarı olan şəxslərin daha çox yüksəlişinin, vəzifədə irəliləməsinin şahidi olursan. Sanki kim daha çox qanunsuzluq edirsə, o daha çox mükafatlandırılır".

**F.Mustafa silahdaşının qarşılaşdığı haqsızlıqla bağlı Milli Məclisdə fərdi qaydada məsələ qaldırmasa da, məhkəmə sistemindəki qanunsuzluqları vaxtaşırı gündəmə gətirdiklərini bildirdi:** "Bu məsələni Milli Məclisdə ümumi kontekstdə qaldırırıq. Çünki məhkəmə qərarları, insanlara qarşı ədalətsiz münasibətlə bağlı bir sıra məqamlar var ki, bunlar vaxtaşırı dilə gətirilir. Haqsız və qanunsuz şəkildə insanların həbsxanalarda saxlanılmasına yol vermək olmaz. Qanunsuz həbslərin baş verməsi yolverilməzdir. Eldar Mahmudov məsələsi də bunu göstərdi ki, bu insanlar sonradan etdiklərinin acı bədəlini ödəyirlər. Çox təəssüf ki, Azərbaycanda bu cür hallar var və bunların aradan qaldırılmasının yollarını düşünmək lazımdır. Fərdiləşmiş qaydada bir mövzunu gündəmə gətirdikdə hamıda belə bir fikir yaranır ki, konkret olaraq icra başçısını və ya kimisə hədəfə alırsan. Bəlkə də onlarla belə icra başçısı var ki, öz fəaliyyəti doğrultmur. Onların fəaliyyəti nəticəsində vətəndaşlar əziyyət çəkirlər. Biz çalışmalıyıq ki, ən azından vətəndaşın subyektiv qərarlardan qorunmaq imkanları olsun. Adam həbs olunursa, bitir. 3 ay uzadılır, 6 ay uzadılır və istintaqın yekununda da bəzən məlum olur ki, hansısa bir məmurun özbaşınalığı olub. Bu cür özbaşınalıq "MTN işi"ndə də baş vermişdi. Bu iş aşkara çıxarıldıqdan sonra məlum oldu ki, nə qədər insan, sahibkar əziyyət çəkib. Kimlərisə əsassız şəkildə həbsə atmağın, onları incitməyin nə mənası var? Bütün bunların arxasında insan, ailə faciələri durur. Mən bunun birini nümunə gətirərək göstərmək istədim ki, bir yanlış addımın nəticəsi körpə uşağın ölümüdür. Onlarla belə ailələr var. Belə halları müxtəlif yollarla da olsa, ictimailəşdirmək bir borc olaraq bizim üzərimizə düşür".

❑ İ.MURADOV

**2016-cı ildə dövlət büdcəsi gəlirlərinin 7 milyard 10 milyon manatı və ya 41,7%-i Vergilər Nazirliyinin xətti ilə daxilolmaların payına düşəcək. Bu, "Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsi haqqında" Qanunda dəyişikliklər layihəsində öz əksini tapıb. Belə ki, gəlirlərin strukturunda Vergilər Nazirliyinin öhdəliyi 6,2 faiz artımla 7 milyard 10 milyon manat, Dövlət Gömrük Komitəsinin öhdəliyi 13,8 faiz artımla 1 milyard 810 milyon manat nəzərdə tutulub.**

# Yeni büdcə sahibkarların cibinə "yüklənir"

## Ekspert: "Vergilər Nazirliyi büdcə tələblərini yerinə yetirə bilmədiyi üçün sahibkarların vergi yükünü daha da artıracaq"

Onu da qeyd edək ki, Milli Məclisin fevralın 23-də müzakirə edəcəyi layihədə büdcənin gəlirlər hissəsi 15,5 faiz artırılaraq 16 milyard 822 milyon manata, xərclər hissəsi isə 13,7 faiz artırılaraq 18 milyard 495 milyon manata, büdcə kəsiri isə 25 milyon manat azaldılaraq 1 milyard 673 milyon manata çatdırılıb.

Ən vacib məqamlardan biri də budur ki, neftin qiymətinin 25 dollardan götürülməsi nəticəsində büdcə xərcləri daha rentabelli və daha qənaətli şəkildə formalaşdırılıb. Bir sözlə, hökumət gəlirlərin azalmasını nəzərə alaraq qənaət büdcəsinə keçib. Ekspertlər isə hesab edir ki, neft gəlirlərinin çox olduğu vaxtda da büdcənin məhz bu cür rentabelli olması əsas şərt idi və hökumət bu addımı atmaqda gecikmiş sayılır.

Büdcə gəlirlərində vergi və gömrükdən daxilolmaların artırılması da ekspertlər tərəfindən birmənalı qarşılanmayıb. Sahibkarlıq obyektlərinin bir-birinin ardınca bağlanmasını, ölkədə iqtisadi fəallığın azalmasını nəzərə alsaq, vergi daxilolmalarının artacağı real görünmür. Bəs görəsən, indiki situasiyada vergi yığımları hesabına büdcə gəlirlərinin 42 faizini, gömrük rüsumları hesabına isə 14 faizini təmin etmək mümkün olacaqmı? Bu, Vergilər Nazirliyi tərəfindən sahibkarlara vergi təzyiqlərinin artmasına yol aça bilərmi?

**"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı ekspert Rəşad Həsənov bildirdi ki, iqtisadi fəallığın zəiflədiyi bir vaxtda bu addım sahibkarlara təzyiqləri artıracaq:** "Son dəyişikliklə vergi daxilolmaları ötən ilin büdcəsinə bərabər nəzərdə tutuldu. Ancaq onu da nəzərə almaq lazım idi ki, hazırki iqtisadi vəziyyət 2015-ci illə müqayisədə daha çətin olacaq, xüsusilə də real sektorda. Faktiki olaraq, dövriyyə azalır. Dövriyyə azalması yay aylarında daha ciddi şəkildə hiss olunacaq. Çünki bu zaman gəlirlər də azalır. Bu, vergilərin azalmasına səbəb olacaq. İş yerlərində ixtisarların aparılması, böyük şirkətlərin ölkədən getməsi də vergi yığımlarının azalmasına səbəb olacaq. Xüsusilə də xarici kapitallı şirkətlərin hesabatlılığı daha şəffaf idi və onların bazarı tərk etməsi də gəlirlərə təsir edəcək.

Nəticə isə ondan ibarət olacaq ki, Vergilər Nazirliyi büdcə tələblərini yerinə yetirə bilmədiyi üçün sahibkarların vergi yükünü daha da artıracaq. Bu da hazırki situasiyada doğru deyil. Sahibkarlar onsuz da iqtisadi problemlərin təzyiqi altındadırlar. İqtisadi aktivliyin azalması və verginin administrativ şəkildə təzyiqləri artırması həmin obyektlərin bağlanmasına gətirib çıxaracaq. Bu da real sektorun inkişafına deyil, real sektorda durğunluğun daha da dərinləşməsinə gətirib çıxaracaq".




**Ekspert həmçinin sahibkarların fəaliyyətində şəffaflığın artırılmasının və vergi ödənişlərinin birbaşa büdcəyə yönəldilməsinin də vacib olduğunu bildirdi:** "İkinci bir variant isə odur ki, vergi daxilolmalarının artırılması məqsədilə leqal fəaliyyətin genişləndirilməsi mümkündür. Bildiyimiz kimi, Azərbaycanda qeyri-neft sektorunun leqallığı daha aşağı səviyyədədir, şəffaflıq baxımından xeyli problemlər var. Mən bunda sahibkarları günahlandırmıram. Bu, bu günə qədər aparılan yanlış siyasətin nəticəsidir. Bəzən bu dövlət orqanlarının özləri maraqlı olur ki, sahibkar fəaliyyətini qeyri-leqal şəkildə qursun və onlar da sahibkardan qeyri-rəsmi ödənişlər tələb edə bilsinlər. Burada sahibkarlıq fəaliyyətinin şəffaflığını artırmaqla daxilolmaların artmasına nail olmaq olar. Lakin bu istiqamətdə hökumət hər hansı cəhd göstərmir. Bu baxımdan büdcədə vergi yükünün artırılması iqtisadi problemlərə səbəb olacaq".

**Rəşad Həsənovun sözlərinə görə, Gömrük Komitəsinin öhdəliyinin 14 faiz artırılması da maraqlı məqamdır:** "Yanvar ayının statistikasına diqqət etsək, gömrük gəlirlərində 50 faizə qədər azalma müşahidə edilir. Onu da nəzərə almaq lazımdır ki, 2016-cı ildə idxalın həcmi xeyli dərəcədə azalacaq, çünki alıcılıq azalacaq və ölkədə daxili tələbat aşağı düşəcək. Dövlət büdcəsində xərclərin azaldılması dövlətin də alıcılıq qabiliyyətinin azalmasına səbəb olur. Hər iki amil birləşdikdə idxalın həcmi azalır. Lakin bunun qarşılığında ötən illə müqayisədə gömrük daxilolmaları artırılır.

Maraqlı məqamlardan biri də odur ki, ölkədə bir çox sahələrdə inkişafa nail olmaq üçün islahatların aparılmasına və gömrük rüsumlarının azaldılmasına və ya ləğvinə ehtiyac var idi. Bu halda gömrük gəlirlərinin necə, hansı mənbələr hesabına artırılacağı maraqlı görünür".

**Vüqar Bayramov isə bildirdi ki, büdcə gəlirlərinin azalması da qeyri-neft sektorundan daxilolmaların faiz dərəcəsinin artmasına səbəb olub:** "Büdcədə neftin qiymətinin 25 dollardan hesablanması artıq qeyri-neft sektorunun payının artırılması anlamına gəlir. Əks halda, büdcə gəlirlərindəki tarazlığı formalaşdırmaq mümkün olmayacaq. Nəzərə alsaq ki, mövcud layihədə büdcə gəlirlərinin 51 faizi neft sektorunun, 49 faizi qeyri-neft sektorunun payına düşürdü. 2016-cı ilin büdcəsinin formalaşması zamanı heç bir halda sahibkarlara təzyiq edilməsi arzuolunan deyil. Çünki hökumət çalışmalıdır ki, ölkədə sahibkarlıq inkişaf etsin. Sahibkarlığa yersiz müdaxilələrin aradan qaldırılması hesabına növbəti illərdə dövlət büdcəsinin gəlirlərindəki tarazlığı formalaşdırmaq mümkündür. Gömrüklə bağlı sahibkarlara təzyiqlərin olacağını düşünmürəm. Gömrükdən daxilolmaların artması həm də ona görə mümkün olacaq ki, son islahatlardan sonra ödənişlərin rəsmiləşdirilməsi həyata keçirilib. Brokerlərin ləğv edilməsi artıq gömrükdəki qeyri-rəsmi ödənişlərin aradan qaldırılmasına və ödənişlərin dövlət büdcəsinə daxil olmasına imkan yaradacaq. Digər bir məqam isə odur ki, gəlirlərin 42 faizinin qeyri-neft sektorunun payına düşməsi həm də ona görə olacaq ki, büdcə gəlirləri azalacaq. Ona görə də mən düşünmürəm ki, bu 42 faiz ciddi narahatlıq formalaşdıracaq. Əsasən büdcə gəlirlərinin azalması faiz dərəcəsinin çoxalmasına səbəb olur".

❑ **Nərgiz LİFTİYEVA**

# Borcluların hüquqları niyə qorunmur?

## Rusiyada kredit götürənlərin hüquqlarını qoruyan qanun hazırlanır; ekspertlər bunun Azərbaycan üçün də vacib olduğunu bildirirlər



**Rusiyada kredit götürənlərin, borcluların hüquqlarını qoruyacaq qanun layihəsi hazırlanır. Bildirilir ki, Dövlət Dumasının sədri Sergey Narışkinin və Federasiya Şurasının sədri Valentina Matviyenkonun rəhbərliyi ilə hazırlanan layihə banklara və kredit təşkilatlarına borclu olan vətəndaşların hüquqlarının qorunması istiqamətindədir.**

Burada borclularla bağlı məsələ kiçik detallara qədər müzakirə edilir. Məsələn, borcluya gün ərzində bir dəfədən artıq zəng etmək olmaz, onun işlədiyi təşkilata kredit borcu olması ilə bağlı heç bir halda xəbərdarlıq, arayış göndərilə bilməz. Hansısa əmlakının itirilməsi ilə bağlı təhdid edilə bilməz və sair. Azərbaycanda isə bütün bu hərəkətlər daha sərt halda borclulara qarşı edilir. Banklar xeyli müddətdir ki, problemli kredit şöbələrini yaradaraq orada borcları geri tələb etmək üçün işçilər götürürlər. Həmin işçilər isə əksər hallarda borclu vətəndaşa günlərlə hədə-qorxu gələrək kreditin qaytarılmasını təhdidedici şəkildə tələb edirlər. Son vaxtlar ölkədə kredit borcuna görə intiharlar və özünü yandırma kimi faktlar da var.

Ekspertlər Azərbaycanda da bu qanunun qəbulunu vacib sayırlar. Maraqlıdır ki, indiyədək bizdə belə bir qanun layihəsi hazırlanmayıb.

**Ekspert Samir Əliyevin sözlərinə görə, bu, əslində çox aktual bir məsələdir:** "İndi aktuallığı xüsusilə artır. Birincisi, Azərbaycanda bank qanunvericiliyi daha çox bankların hüquqlarını müdafiə edir. Faktiki olaraq müştərilərin hüquqları qorunmur. Buraya təkcə krediti yox, əmanəti də daxil edirəm. Eyni zamanda, ümumiyyətlə, bank, maliyyə xidmətlərindən istifadə edən vətəndaşların hüquqlarını qoruyan bir qanun yoxdur. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanun ümumi qanundur. Sırf bank müştəriləri üçün qanunun olması vacibdir. Kredit götürən vətəndaşın hüquqlarını qorumaq üçün ayrı bir qanun olmalıdır. Bu qanun Amerikada da var, Avropa ölkələrində də var. Azərbaycanda belə bir qanunun qəbuluna ehtiyac var. "İstehlak kreditləri haqqında" Qanun adlanır. Kredit müqavilələri ilə bağlı problemlər var, müqavilələr banklar tərəfindən tərtib edilir və onu başa düşmək olmur. Standart bir müqavilə forması olur. Halbuki müqavilə hər bir müştəriyə görə fərdi olaraq tərtib edilməlidir. Borc məsələsində problem yaranır, borc yarandıqda, onun alınması necə aparılacaq? Bizdə həm iş yeri vasitəsilə təsir edirlər, zaminə zəng vururlar, incidirlər. Telefon zəngləri vasitəsilə narahat edirlər. Məsələn, kollektor şirkətlər var. Vətəndaşın hüquqlarının qorunması baxımından bu qanun qəbul olunmalıdır. Həmçinin bizdə də maliyyə ombudsmanı olmalıdır. Tutaq ki, kredit alan vətəndaşın hüququ pozulur. Yaxud əmanətlərlə bağlı problem var. Hara müraciət etməlidir? Banka müraciət edir və bank maraqlı tərəfdir. Bu gün faktiki olaraq vətəndaşın müraciət edəcəyi qurum yoxdur. Maliyyə ombudsmanı yaradılmalıdır. Əsas funksiyası məhkəmələrə qədər yaranmış problemləri həll etməkdir. Maliyyə ombudsmanı pulsuz hüquqi xidmət göstərir. Banklarla vətəndaş arasındakı hər hansı bir çətinlik olan zaman çalışır ki, məsələ gedib məhkəməyə çıxmasın. Bu quruma çox böyük ehtiyac var".

**Ekspert Əkrəm Həsənov isə musavat.com-a bildirib ki, Rusiyada müzakirə olunan qanun layihəsi kollektor təşkilatlarına qarşıdır:** "Kollektorlar xüsusi təşkilatlardır, hansı ki, borclulardan borcun tələb edilməsi, qaytarılması ilə məşğuldur. Rusiyada da bunlar faktiki artıq banditlərdir. Yəni vətəndaşı qorxudurlar, döyürlər, hədə-qorxu gəlirlər, zəng edirlər, müxtəlif yollarla vətəndaşlardan borcun qaytarılması tələb edilir. Bu yaxınlarda orada xoşagəlməz hadisə olmuşdu. Buna görə sərt qanun layihəsi var. Rusiyada artıq bu qanun qəbul ediləndən sonra bu fəaliyyət lisenziyalaşdırılan fəaliyyətə çevriləcək. Qanunla nəzərdə tutulan tələblər qoyulacaq ki, hər kəs bu fəaliyyətlə məşğul ola bilməsin. Məşğul olanda da dövlət nəzarəti olsun. Ümumən müsbət haldır. Azərbaycanda da kollektor şirkətlər var. Amma Rusiyadakı kimi banditlik etmirlər, amma bütün kollektorlar zəng edirlər, qorxudurlar. Belə hallar bizdə var, amma Rusiyadakı o həddə deyil. Bizdə qanunvericilik yoxdur. Yaxşı olardı ki, Rusiyanın bu təcrübəsi bizim üçün də nümunə olsun. Bizdə də get-gedə münasibətlər sərtləşəcək, bankların, kollektorların borcları tələb etməsi sərtləşəcək. Ona görə onların fəaliyyətini məhdudlaşdırmağa ehtiyac var".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 39 (6360) 19 fevral 2016

## Ərdoğanın Bakı səfərini əngəlləyən müdhiş olayın pərdəarxası

**Fevralın 17-də axşam saatlarında Türkiyənin paytaxtı Ankarada son 4 ayda ikinci böyük terror hadisəsi törədildi. Baş verən faciə qardaş ölkə ilə yanaşı, dünyanı silkələdi. 29 nəfərin öldüyü, 60-nın isə yaralandığı hadisədən Azərbaycan da ciddi şəkildə sarsıldı. Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahının terrorla bağlı yaydığı məlumatdan aydın olur ki, hadisə İnönü bulvarı yaxınlığında Silahlı Qüvvələrin heyətini daşıyan avtobuslar işıqforda dayanarkən baş verib. Terror hadisəsi anbaan təhlükəsizlik kameralarına düşüb.**




# Türkiyədə terror şoku - Azərbaycan da təhdid altında?

### Onlarla insanın ölümünə gətirən faciədə Rusiya izi də istisna edilmir; Türkiyə terror havadarlarına xəbərdarlıq elədi; Azərbaycan prezidenti İlham Əliyev "Yanınızdayıq" dedi; **təhlükəsizlik eksperti:** "Terroru Bakının özündə törədə bilərdilər...."

Əslində qalsa, terrordan bir qədər öncə həyəcanlı xəbərlər türk mətbuatında dərc olunurdu. Mətbuat yazırdı ki, Suriyadan Türkiyəyə hava limanlarında bombalı qətliamlar törətmək üçün 14 "canlı bomba" keçib.

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın hadisəyə münasibəti gözlənildiyi kimi sərt olub:** "Türkiyənin terrorla mübarizəsində verdiyimiz itkilərin artması millət olaraq ürəyimizi yaralayır, səbrimizi tükədir. Əxlaqi və insani anlayışı olmayan bu hücumları reallaşdıran "oyuncaqlarla" və onların arxasındakı güclərlə mübarizəmizi hər gün daha qərarlı bir şəkildə davam etdirəcəyik. Birliyimizə, bərabərliyimizə, gələcəyimizə qarşı sərhədlərimizdən kənarda və ya daxildə baş verən hücumlara misli ilə cavab verəcəyik. Türkiyə özünümüdafiə haqqından hər zaman, hər yerdə və hər vəziyyətdə istifadə edəcək".

Qeyd edək ki, ötən il oktyabrın 10-da baş verən ilk Ankara terroru ilə indiki arasındakı versiyalarda ciddi fərqlər var. Əgər o zaman hadisədə daha çox PKK izi axtarılırdısa, indi tamam fərqli situasiyadır. Hadisənin Türkiyə prezidentinin Azərbaycana, eləcə də baş nazir Əhməd Davudoğlunun Brüsselə səfəri ərəfəsində baş verməsi faciə ətrafında iddiaların çoxalmasına səbəb oldu. Qardaş ölkənin böyük güclərin təhdidi altında olduğu heç kəsə sirr deyil.

Türkiyə ilə Azərbaycan qədər bir-birinə yaxın ölkə dünyada yoxdur. Fevralın 18-də Gəncədə Azərbaycan və Türkiyə dövlət başçılarının iştirakı ilə Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası keçiriləcəkdi. Bu görüş daha çox rus mediasının gündəmində idi. Çünki hər iki dövlət başçısının görüşündə əsas müzakirənin Türkiyə-Rusiya münasibətləri olacağı heç kəsə sirr deyildi. Görüş baş tutardısa, sonda Azərbaycanın Rusiya ilə münasibətlərdə qardaş ölkənin tərəfində olması ilə bağlı açıq mövqeyi də gözlənilən idi. Eləcə də, Davudoğlunun Avropa İttifaqına üzv 11 ölkənin dövlət və hökumət başçılarının fevralın 18-də Brüsseldə keçirilməsi nəzərdə tutulan miqrasiya və Suriyadakı vəziyyətlə bağlı görüşünü də unutmaq olmaz. Bu görüşdə də Suriyanın fonunda Rusiya məsələsinin müzakirə ediləcəyi şübhəsiz idi.

Faciə ilə bağlı hər iki səfər təxirə salındı. Xəbər verildiyi kimi, Türkiyənin dövlət başçısı Azərbaycan prezidentinə zəng edərək, terror aktına görə səfəri başqa vaxta təxirə saldığını bildirib. Bu amillərə görə qanlı Ankara olayında Rusiya izi axtaranlar çoxluq təşkil edir. Xüsusilə hadisəni törədən şəxsin kürd əsilli suriyalı Salih Necar olması, bu hadisədən Rusiyanın xəbərinin olması versiyalarının artmasına səbəb olub. Terrorçunun PKK-nın Suriya qolu olan YPG-nin üzvü olduğu qeyd edilir.

Kürdlərin Suriyadakı qoluna zaman-zaman Rusiyanın dəstək verməsi ilə bağlı mətbuatda xəbərlər gedib. Hətta kürdlərə təlim keçən rus təlimatçılarının olduğu barədə iddialar da var idi. Ankara terrorunun timsalında bu versiyaların ortaya atılması heç də təsadüfi deyil. Doğrudur, Rusiya rəhbərliyi hadisədən dərhal sonra Ankara terrorunu qınayan açıqlamalar verdi. Amma bu heç nəyi dəyişmədi.

Ankara hadisəsinin baş verdiyi günlə bağlı daha bir diqqətçəkən nüans var. Belə ki, 17 fevral Türkiyədə Hərbi Təyyarəçilər Günü kimi qeyd olunur. Məhz bu gündə faciənin törədilməsi, özü də hərbiçilərin olduğu avtomobillərin partladılması, hadisədə Rusiya amilinin rol oynadığı ehtimallarını gücləndirir. Əksər ekspertlər 17 fevralla ötən il Türkiyə tərəfdən vurulan Rusiyaya məxsus "Su-24" təyyarəsinin vurulduğu 24 noyabr gününü müqayisə edirlər. Buradan çıxış edərək, Rusiyanın məhz 17 fevralda Türkiyədən qisas aldığı deyilir.

**Sabiq MTN-çi, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər Ankara faciəsinin Ərdoğan və Davudoğlunun dövlət səfərləri ərəfəsinə təsadüf etməsinə belə aydınlıq gətirdi:** "Türkiyə dinamik ölkədir. Burada təsadüfi heç nə yoxdur. Hər hansı iz axtarmaq mümkündür. Türkiyə rəhbərliyinin daim intensiv səfərləri olur. Hadisənin Türkiyə Böyük Millət Məclisinə, xüsusilə Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahına yaxın yerdə iş saatından sonra baş verməsi düşünülmüş addımlardır. Əsas mesaj ondan ibarətdir ki, biz Türkiyəni onun mərkəzində vurmağa qadirik. Türkiyənin baş naziri açıq şəkildə əllərində faktların olduğunu bildirdi. Hadisəni törədən terrorçunun Suriya və Türkiyədəki kürd təşkilatları ilə bağlığının olduğunu, faciəni PKK və YPG-nin birlikdə təşkil etdiyini Davudoğlu qeyd etdi. Hər bir terror aktının sifarişçisi olur. Hələ ki icraçılar səviyyəsində terror məsələsinə aydınlıq gətirilir. Təşkilatçılar haqqında hələ ki əlimizdə bir bilgi yoxdur. Türkiyə ilə YPG-ni dəstəkləyən ölkələr arasındakı münasibətlərdə yeni mərhələnin başlandığını düşünürəm. Davudoğlu bildirdi ki, xarici işlər nazirinə göstəriş verəcək - YPG ilə bağlı bütün faktları dünya dövlətlərinə göndərməklə bağlı. Türkiyənin baş naziri konkret bəzi ölkələrin adını çəkərək, Suriyanın Ankara faciəsində birbaşa məsuliyyət daşıdığını bildirdi. Rusiyanın adını çəkərək, YPG-nin Rusiyada nümayəndəlik açmasına icazə verdiyini vurğuladı. Baş nazir ABŞ-a da mesaj verərək, YPG-yə münasibətinin dəyişməyəcəyi təqdirdə Türkiyə kimi müttəfiqini itirəcəyinin anonsunu verdi. Çox ciddi bir hadisənin baş verdiyini düşünürəm. Fürsətdən istifadə edib, Türkiyəyə, ölənlərin yaxınlarına başsağlığı verirəm. Allah rəhmət eləsin".

**S.Əkbər hadisədə Rusiya amilinin olması barədə iddialara da aydınlıq gətirdi:** "Versiyalar ola bilər. Bununla bağlı mənim də düşüncələrim var. PKK-nı yaradan Rusiya xüsusi xidmət orqanları olub. İŞİD-i idarə edənlər də Səddam Hüseynin generallarıdır. Bu, konkret hadisədir. İstintaq bütün faktları ortaya çıxarmalıdır. İstintaq ictimaiyyət üçün açıqlana da bilər, açıqlanmaya da. Ola bilsin ki, terrorun arxasında duran ölkə məlum olsun, lakin adı açıqlanmasın".

**Politoloq Ərəstun Oruclu bu terror aktının Türkiyəyə ciddi xəbərdarlıq olduğunu qeyd etdi:** "Türkiyənin nüfuzunun güclənməsi, son proseslərdə Qərb tərəfindən dəstəklənməsi onu istəməyənlər üçün ciddi narahatlıq doğurardu. İlham Əliyevin London səfəri və Suriya konfransındakı iştirakından sonra Azərbaycana qarşı açıq və gizli təhdidlər gördük. Araz Əzimovun məlum müsahibəsinin hansı effektləri doğurduğunu gördük. Türkiyə Suriya və digər məsələlərdə qəti addımlar atacaqdı və bu addımların qarşısında olacaq manevələri görürdü. Belə bir vəziyyətdə terror aktının baş verməsi ciddi xəbərdarlıqdır. Türkiyə rəhbərliyinin səfərləri təxirə salmaları da təsadüf deyil. Çünki Türkiyədə terror birinci dəfə deyil. Ərdoğan və Davudoğlu olmasaydı belə, terrorun fəsadları aradan qaldırılacaqdı. Bu, siyasi mesaj olduğundan səfərlər təxirə salındı. Əgər səfərlər təxirə salınmasaydı, Brüsseli demirəm, amma Türkiyə-Azərbaycan yaxınlığını istəməyənlər növbəti terroru Bakının özündə törədə bilərdilər. Açığı, konkret ad çəkmək istəməzdim. Faktlar olmadığı yerdə hansısa dövləti terrorçuluqda ittiham edə bilmərəm. Terrorçunun YPG-dən olmasının özü də ciddi mesajdır. Terrorçunun hansı quruma aid olması texniki məsələdir. Əsas sifarişçinin kim olmasıdır. Ciddi mesajdır ki, Türkiyənin Suriyada və daxilində kürdləri zərərsizləşdirməsi, qonşuluğunda separatçı dövlətin yaranmasına mane olması baha başa gələcək. Çox mürəkkəb situasiyadır. Türkiyənin Suriyaya girməsində, özünə müttəfiqlər toplamasında maraqlı olmayan dövlətlərin bu terror hadisəsində maraqlı tərəf olduqlarını açıq görürəm".

***

Türkiyə tərəfinin əvvəlcədən belə təhlükə ilə üzləşə biləcəyini ehtimal etdiyini desək, yanılmarıq. Belə ki, prezident Ərdoğanın Azərbaycana səfərinə birbaşa Gəncədən başlayacağı deyilsə də, qəflətən Türkiyə rəhbərinin təyyarəsinin paytaxta enəcəyi barədə xəbərlərin yayılması bir sıra suallar yaratmışdı. Doğrudur, Türkiyə tərəf bunu dumanlı hava şəraiti ilə ələqələndirmişdi. Amma sonradan bəzi ehtimallar ortaya çıxdı. Gəncənin işğal zonaları ilə həmsərhəd olduğu, işğal altındakı yüksəkliklərdən şəhərin aydın şəkildə göründüyü, qısas əşqi ilə alışıb-yanan Rusiyanın "erməni kartı"ndan istifadə edib, hər hansı bir hadisə törədə biləcəyi ehtimal olundu. Məhz bu səbəbdən Türkiyə prezidentinin səfərini Gəncəyə yox, Bakıya planlaşdırdığı deyildi.

**Qeyd edək ki, terror aktının baş verdiyi andan etibarən dünya ölkələrinin əksəriyyəti Türkiyəyə başsağlığı verərək, dəstək nümayiş etdirirlər. Azərbaycan prezidenti İlham Əliyev həmkarına göndərdiyi başsağlığında baş verən hadisədən kədərləndiyini bildirib:** "Ankara şəhərində törədilmiş terror aktı nəticəsində insanların həlak olması və yaralanması xəbəri bizi olduqca kədərləndirdi. Biz bəşəriyyət üçün dəhşətli bəlaya çevrilmiş terrorizmi qətiyyətlə pisləyir, ona qarşı mübarizəni hər cür dəstəkləyirik. Bu amansız hadisə terrorizmə qarşı hamılıqla mübarizənin zəruriliyini bir daha təsdiq edir. Baş vermiş faciə ilə əlaqədar dərdinizi bölüşür, sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm. Azərbaycan xalqı həmişə olduğu kimi Türkiyə xalqının yanındadır".

Almaniya kansleri Angela Merkel, Fransa prezidenti Fransua Olland və digər böyük dövlətlərin başçıları Türkiyə prezidentinə verdikləri başsağlığında türk xalqının yanında olduqlarını bildiriblər.

NATO-da Ankara terrorunu kəskin şəkildə qınayıb. Qurumun baş katibi Yens Stoltenberq bildirib ki, NATO terrorla mübarizədə Türkiyə ilə çiyin-çiyinədir.

***

Onu da qeyd edək ki, dünən - fevralın 18-də Türkiyədə növbəti terror hadisəsi törədilib. Bu dəfə hədəf Diyarbəkir vilayəti seçilib. Hərbi maşın yolu keçərkən partlayış törədilib. Nəticədə 5 əsgər şəhid olub, 2 əsgər isə yaralanıb.

**Ankara faciəsindən bir gün sonra Ərdoğan Silahlı Qüvvələrin Baş Qərargahındakı çıxışında cinayətin ucunun xaricdə olduğunu istisna etmədikləri barədə sərt mesajlar verib:** "Zəncir sökülməyə başlayıb. 14 nəfər tutulub. Mənim qənaətimə görə, onların sayı 14-dən çoxdur. Çünki bu cinayətin bir ucunun xaricdə olduğu istisna deyil. Son zamanlar Türkiyədə keçirdiyimiz antiterror əməliyyatları nəticəsini verməkdədir. İstər PKK, istərsə də PYD bu terrorla əlaqələrinin olmadığını söyləsələr də, Daxili İşlər Nazirliyi və təhlükəsizlik orqanlarının əldə etdiyi məlumatlara əsasən, cinayəti onların törətdiyi aşkarlanıb".

**Ərdoğanın Azərbaycana səfəri təxirə salınsa da, fevralın 18-də Azərbaycan prezidenti Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib. Görüşdə Ankara faciəsi əsas müzakirə mövzusu olub. Azərbaycan prezidenti bir daha öz dəstəyini qardaş ölkənin təmsilçisinə çatdırıb. İ.Əliyev tezliklə Ərdoğanın təxirə salınan səfərinin gerçəkləşəcəyinə də əminlik ifadə edib.**

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 39 (6360) 19 fevral 2016

YAP-ın rayon təşkilatının sədri haqda şok xəbər

# Tağı Əhmədovun milyonu bankda batıb

## Bakı Metropoliteninin sabiq rəisi bankların birinə vaxtilə külli miqdarda əmanət yatırıbmış; metroda müxtəlif vasitələrlə dövlət büdcəsindən və vergidən gizlədilərək mənimsənilən vəsaitlər yenidən gündəmə gəlib



**Hakimiyyətin ən koloritli və tipik məmurlarından olan Tağı Əhmədovun işdən çıxarılmasından xeyli vaxt keçsə də, ara-sıra onun adı yenidən gündəmə gəlir. Zaman-zaman sabiq rəisin dövründə Bakı Metropolitenində baş verən böyük miqyaslı korrupsiya faktları ilə bağlı məlumatlar da yayılır. İşdən çıxarıldıqdan sonra Bakı Metropolitenində aparılan yoxlamalar bir sıra ciddi korrupsiya əməliyyatlarını üzə çıxarmışdı. Məlumatlarda bildirilirdi ki, dövlət orqanlarına Bakı Metropolitenində külli miqdarda vəsaitin mənimsənildiyi barədə məlumat daxil olub. Aparılan ilkin araşdırma məlumatın əsaslı olduğunu üzə çıxarıb. Məsələ barədə prezident İlham Əliyevə məruzə olunduqdan sonra T.Əhmədovun vəzifədən azad edilməsi və onun rəhbərlik etdiyi qurumda yoxlamalar başlanması barədə qərar qəbul olunub.**

İddia olunurdu ki, yoxlama nəticəsində müəyyən edilib ki, metropolitendən və geniş ticarət şəbəkəsindən hər il əldə olunan 11-12 milyon manat vəsait müxtəlif vasitələrlə dövlət büdcəsindən və vergidən gizlədilərək mənimsənilib. O da deyilirdi ki, metroda fəaliyyət göstərən ticarət obyektlərinin tam əksəriyyəti T.Əhmədovun ailə üzvlərinin, qohumlarının və ona yaxın olan şəxslərin adlarına rəsmiləşdirilib. Araşdırmaların nə ilə nəticələndiyi bilinmədi, amma əksəriyyəti T.Əhmədova və yaxınlarına məxsus olan bütün ticarət köşkləri bağlandı.

1998-2014-cü illərdə Bakı Metropoliteninin rəisi vəzifəsində çalışan T.Əhmədov işdən çıxarıldıqdan sonra indiyədək rahat həyatına davam etməkdədir. O, ötən ilin iyunundan YAP Yasamal rayon təşkilatının sədridir. 21 dekabr devalvasiyasından sonra ciddi maliyyə böhranı yaşayan banklara Azərbaycanın üzdə olan tanınmış adamlarının da böyük məbləğdə vəsaitlər yatırdığı barədə məlumatlar yayılmaqdadır.

Bakı Metropoliteninin sabiq rəisi, Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının hazırkı sədri Tağı Əhmədovun da adı həmin tanınmışlar siyahısında var. Etibarlı mənbələrdən modern.az saytına verilən məlumata görə, Bakı Metropoliteninin sabiq rəisi Tağı Əhmədovun bir neçə milyon manat vəsaiti bugünlərdə bağlanan banklardan birində batıb.

Saytın xəbərinə görə, o, Azərbaycanda problemlə üzləşən bankların birinə vaxtilə külli miqdarda əmanət yatırıbmış. Lakin ötən ilin 21 dekabrında manatın devalvasiyaya uğraması nəticəsində bir çox banklarda ciddi problemlər yarandığı üçün əmanətçilərin vəsaitləri geri qaytarıla bilməyib. Tağı Əhmədov da bankdan əmanətini geri istəyib, amma bu, alınmayıb. Nəticədə sabiq rəisin külli miqdarda əmanəti bankda batıb. Modern.az saytı məsələyə Tağı Əhmədovun özündən münasibət öyrənməyə çalışıb. O, dəstəyi açsa da, sonradan telefonu söndürüb. Xanımı Salatın Əhmədova isə suala cavab verməkdən imtina edib.

❑ **"Yeni Müsavat"**

## Rauf Mirqədirovun məhkəməsi martın 3-nə qaldı



**Fevralın 18-də Bakı Apelyasiya Məhkəməsində həbsdə olan jurnalist Rauf Murqədirovun apelyasiya şikayəti üzrə ilkin hazırlıq iclası başlayıb.**

Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, prosesə hakim Abid Abdinbəyov sədrlik edib. Hazırlıq iclasında vəkil Fuad Ağayevin cinayət işinə xitam verilməsi, həbs-qətimkan tədbirinin ləğv edilməsi ilə bağlı qaldırdığı vəsatətlər təmin edilməyib. Məhkəmə baxışı martın 3-nə təyin olunub.

Xatırladaq ki, Rauf Mirqədirov Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə ittiham olunub. O, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 6 il müddətinə azadlıqdan məhrum edilib.

Bu hökmdən apelyasiya şikayəti verilib, şikayətdə jurnalistə bəraət verilməsi xahiş olunur.

Qeyd edək ki, R.Mirqədirov 2014-cü il, aprelin 19-da Türkiyədə saxlanılaraq Azərbaycana deportasiya olunub. R.Mirqədirov Azərbaycanın suverenliyi, dövlət təhlükəsizliyi, ərazi toxunulmazlığı və müdafiə qabiliyyəti zərərinə olaraq 2008-ci ilin aprelindən etibarən Ermənistanın xüsusi xidmət orqanlarının əməkdaşları tərəfindən məxfi əməkdaşlığa cəlb edilərək onların tapşırıqları əsasında Azərbaycana qarşı düşmənçilik fəaliyyəti aparılmasında istifadə üçün ölkədəki ictimai-siyasi, hərbi sahədəki vəziyyət, həmçinin dövlət sirri təşkil edən digər məlumatları fotoşəkilllər və sxemlərlə birlikdə Ermənistan, Gürcüstan və Türkiyə ərazisində dəfələrlə görüşüb onlara verməsində əsaslı şübhələr olduğundan həmin faktla bağlı Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə cinayət işi başlanıb.

R.Mirqədirov isə ittihamları rədd edir və həbsinin fəaliyyəti ilə bağlı olduğunu deyir.

# Azərbaycanın qapıları ABŞ-ın donor təşkilatlarının üzünə hələ də bağlıdır

## Arzu Abdullayeva: "Ümid edirik ki, bu anlaşılmazlıq aradan götürüləcək"

**Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramının Vətəndaş Cəmiyyəti Forumunun Azərbaycan üzrə koordinatoru Əvəz Həsənov "Amerikanın səsi"nə müsahibəsində ölkədə vətəndaş cəmiyyətinin durumu, qarşılaşdığı çətinliklər, beynəlxalq donor təşkilatlarının Azərbaycanda fəaliyyətinin məhdudlaşdırılması və vəziyyətdən çıxış yollarından danışıb.**



Ə.Həsənov deyib ki, Azərbaycanda 2014-cü il fevralın 4-dək beynəlxalq təşkilatların fəaliyyəti üçün bütün şərait var idi. Yəni onlar öz layihələrini sərbəst icra edə bilirdilər, Azərbaycanda olan beynəlxalq təşkilatların tərəfdaşları o layihələrə qoşula bilirdi, eyni zamanda onlar dövlətlə görüşə bilirdi. 2014-cü ilin fevralından sonra artıq Azərbaycanda vətəndaş cəmiyyəti və beynəlxalq təşkilatlar üçün bir dönüş olub: "Həmin beynəlxalq təşkilatlar dövlətin layihə qeydiyyatı qadağasından sonra demək olar ki, Azərbaycanda iş imkanını itirdilər. Bütün layihələr, həmin təşkilatların təşəbbüsləri Ədliyyə Nazirliyində qeydiyyatdan keçirilməli idi. Qeydiyyat məsələsi əvvəllər də var idi, sadəcə, dövlət onun üzərində o qədər də durmurdu. 2004-cü ildən həmin qeydiyyat prosesi var idi, sadəcə, həmin qeydiyyat bir az xəbərdarlıq xarakteri daşıyırdı. Ancaq 2014-cü ilin fevralından sonra bu qətiləşdi.

İndiki son qanunvericiliyə birbaşa yox, qaydalar vasitəsilə edilmiş dəyişikliklər nəzərə alınmasa idi, normal bir qanunvericilik idi. Yəni 2013-cü ildə Venesiya Komissiyasının nümayəndələri Azərbaycana gəlmişdi, onlar vətəndaş cəmiyyətinin üzvləri ilə görüşürdülər, bizim ciddi iradlarımız olanda bildirirdilər ki, sizin qanunvericiliyin bəzi maddələri Şərqi Avropa ölkələrinin qanunvericiliyindən götürülmüş maddələrdir. Ciddi bir iradlar yox idi. Yəni qanunvericilik QHT-lərin qeydiyyatı üçün bütün şəraiti yaratmışdı. Ancaq sadəcə, bu son qaydalar onu bir az məhdudlaşdırdı".

**Ə.Həsənov bildirib ki, nəticədə vaxtilə insan hüquqları, demokratiya, seçki məsələləri ilə məşğul olan təşkilatlar Azərbaycanda öz fəaliyyətlərini nəinki məhdudlaşdırıblar, hətta Azərbaycanda olan bütün ofislərini və proqramlarını bağlayıblar. Həmin təşkilatların Azərbaycanda insan hüquqları və yaxud seçkilərlə bağlı tədbir keçirmək şansları yoxdur:** "Demək olar ki, 2014-cü ilin əvvəlindən ofisi bağlanan əsas təşkilatlar məhz Amerika təşkilatlarıdır. Onlara, beynəlxalq QHT-lərə, donorlara qarşı olan cinayət işinə həmin təşkilatların, onların tərəfdaşlarının cəlb olunması onları qorxutdu. Çünki beynəlxalq təşkilatlarla, xüsusən amerikalı donorlarla işləyən elə bir Azərbaycan təşkilatı yoxdur ki, istintaq prosesində ifadə verməsin. Ona görə də onlar ofislərini bağladı. Mən hesab edirəm ki, Azərbaycanda QHT-lərin fəaliyyətini dəstəkləyə biləcək beynəlxalq donorların əsas istiqamətləri məhz insan hüquqları, demokratiya, azadlıq, sərbəst toplaşmaq azadlığı, seçkilər idi. Qalan məsələləri də Azərbaycan hökuməti özü maliyyələşdirirdi. Yəni, Azərbaycan hökuməti özü qalan bütün humanitar, sosial, iqtisadi layihələri maliyyələşdirirdi. İndi o beynəlxalq təşkilatlar gedəndən sonra qeyd olunan insan hüquqları, demokratiyaya bağlı məsələlərin layihələşdirilməsi, maliyyələşdirilməsi çox çətinləşib".

**Tanınmış QHT rəhbəri, hüquq müdafiəçisi Arzu Abdullayeva "Yeni Müsavat"a bu mövzuda açıqlamasında bildirdi ki, QHT-lərin durumu 2014-cü ilin fevralından sonra daha da pisləşib. QHT-lərlə bağlı qanunların sərtləşdirilməsi nəticəsində onlarla tərəfdaşlıq eləyən beynəlxalq təşkilatlar ölkədən getməyə məcbur olublar:** "O zamandan çox ağır dövr başlandı, bir çox QHT-lərin hesabı bağlandı, beynəlxalq xarici fond və təşkilatlardan qrant almaq mümkün deyil. QHT-lər biznes təşkilatı deyil və ancaq qrantla fəaliyyət göstərirlər. Xarici donorlardan qrant ala bilməmələri Azərbaycanda QHT sektorunu, vətəndaş cəmiyyəti institutunu həddən artıq zəiflətdi. Ən böyük zərbə alan müstəqil QHT-lərdir".

**Hakimiyyətin QHT-lərin dünyaya qapısını nədən bağladığına gəlincə, A.Abdullayeva dedi ki, bunun bir neçə səbəbi var:** "Azərbaycan bütün məsələlərdə olduğu kimi QHT-lərlə bağlı da Rusiyanın atdığı addımları, qəbul etdiyi qanunları kopyalayır. Rusiya hökuməti müstəqil QHT-lərə qarşı kampaniya başladı, QHT rəhbərləri agent adlandırıldı və ardınca da QHT-lərlə bağlı qanunlar sərtləşdirildi. Az sonra Azərbaycan hökuməti də eyni davranışı təkrarladı. Azərbaycan hökuməti Ukraynadakı Maydan hadisələrindən sonra əndişə keçirirdi ki, vətəndaş cəmiyyəti burada da hökumətə qarşı qüvvəsini toplaya və burada da Ukraynadakı hadisələr təkrarlana bilər. Halbuki Azərbaycanda bunun üçün zərrə qədər də əsas yox idi. Hökumət əsassız yerə qorxuya düşmüşdü və bu qorxunun təsiri altında da QHT-lərlə bağlı qanunlara məhdudlaşdırıcı əlavə və dəyişikliklər etdilər. Nəticədə Azərbaycanın qapıları beynəlxalq donorların üzünə bağlandı və Azərbaycanda QHT sektoru acınacaqlı duruma düşdü. Bunun zərərini isə zaman keçdikcə ölkəmiz də görür. Azərbaycan iqtidarı beynəlxalq donor təşkilatlarını ölkədən çıxaranda və qapıları onların üzünə bağlayanda fikirləşmirdi ki, bunun cavabı sanksiyalar, ölkənin beynəlxalq səviyyədə sıxışdırılması ola bilər".

**QHT rəhbəri təəssüflə vurğuladı ki, bu vəziyyətin düzəlməsi üçün hələlik hökumət tərəfindən hansısa addımların atılması müşahidə edilmir:** "Buna baxmayaraq, ümid edirik ki, bu anlaşılmazlıq aradan götürüləcək, qapadılan qapılar açılacaq. Biz hətta bunun üçün dialoq da təklif eləmişik. Ancaq təəssüf ki, hökumət bu dialoqa hazır deyil. Bu barədə Avropa Şurası, Avropa Birliyi də səylər göstərir. İnşallah, baxaq görək onların səyləri müsbət nəticələnəcəkmi".

❑ **E.SEYİDAĞA**

# 170 min dollarlıq rüşvət qalmaqalı istintaqda-komitə sədri susur...

## Səfər İmanov: “Eynur Kərimovdan Hicran Hüseynovanın vasitəsilə işə düzəltmək məqsədi ilə 170 min ABŞ dolları aldım”

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) sabiq aparat rəhbəri Səfər İmanovun Eynur Kərimovdan 170 min dollar alması məsələsində yeni gəlişmələr var. Məsələ böyüyüb və rüşvət qalmaqalı artıq söz davasından faktların ortaya qoyulması mərhələsinə qədəm qoyub. Eynur Kərimov Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə çağırılıb.**



**E.Kərimovun vəkili Adəm Məmmədov “Yeni Müsavat”a deyib ki, hüquqlarını müdafiə etdiyi şəxs idarədə izahat verib:** “Fevralın 17-də müvəkkilim Eynur Kərimov mənim iştirakımla 5 saat Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində oldu. O, idarədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və komitənin sabiq aparat rəhbəri Səfər İmanovla bağlı 13 vərəq izahat verdi”.

**Vəkil AQUPDK-nın yaydığı məlumatda ona yönəlik ittihamlara da münasibət bildirib. Deyib ki, məlumatda iddia olunduğu kimi, o və müvəkkili heç kəsi cinayətkar adlandırmayıb:** “Mən açıqlamalarımda Hicran Hüseynovanı, Səfər İmanovu cinayətkar adlandırmamışam. Hüquqlarını müdafiə etdiyim şəxs onu ittiham edib. Dövlət Komitəsi adından yayılan açıqlamanı hazırlayanlara tövsiyə edirəm ki, qanunları düzgün qavrasın və mətbuatda yazılan xəbərləri düzgün oxusun”.

**S.İmanov tərəfindən 170 min dollarının mənimsənildiyini iddia edən E.Kərimovun özü isə rüşvətin ötürülməsi, Hicran Hüseynova ilə tanışlığının təfərrüatlarını açıqlayıb.**

**“Report”a açıqlamasında deyib ki, H.Hüseynova onu atasının yubileyinə dəvət edib:** “4 il bundan əvvəl Hicran Hüseynova məni atasının yubileyinə dəvətnamə ilə dəvət edib. Həmin tədbirdə Hicran xanım qarşıma gələrək, mənimlə şəxsən görüşüb. O, hətta məndən məclisdə harada oturduğumu da soruşdu. Həmin tədbirdən videogörüntülər də var. Bu il yanvarın 16-da Səfər İmanovla görüşdük. O, mənə qəbz verdi. Qəbzdə göstərilmişdi ki, ”mən Səfərov İman Bəbir oğlu 2012-ci ildə Eynur Kərimovdan Hicran Hüseynovanın vasitəsilə işə düzəltmək məqsədilə 170 min ABŞ dolları aldım. Bu pulun qaytarılmasını öz öhdəliyimə götürürəm. İmzamla təsdiqləyirəm".

**E.Kərimov həmin qəbzi də fevralın 17-də prokurorluğa təqdim etdiyini deyib:** “Ötən il oktyabr ayının 22-də Hicran xanımın qəbulunda olmuşam. Bu gün mətbuatda mənim dələduz olmağım haqda məlumat yayılıb. Həmin şəxslərə bildirmək istəyirəm ki, mənim iki ali təhsilim var. Heç bir məhbusluq həyatı yaşamamışam. Həmçinin hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən də saxlanılmamışam”.

**Qeyd edək ki, S.İmanov 1 noyabr 2015-ci ildə AQUPDK-nın Aparat rəhbəri vəzifəsindən azad edilib. Onun vətəndaş Eynur Kərimovdan 170 min ABŞ dolları aldığı, həmin şəxsə bu vəsait müqabilində rayon icra başçısının müavini vəzifəsinə təyinat vəd etdiyi bildirilir. Xatırladaq ki, komitənin mətbuat xidmətinin fevralın 17-də yaydığı məlumata görə, sabiq aparat rəhbəri Səfər İmanov komitədə işdən ayrıldıqdan bir neçə ay sonra 170 min dollarının mənimsənilməsini iddia edən Kərimov Eynur adlı şəxs komitəyə müraciət edib:** “Həmin vətəndaşın dediyinə görə, o, 4 il əvvəl Səfər İmanova pul vəsaiti təqdim edib. Eyni zamanda rəqəmlər şəxs tərəfindən dəyişdirilərək hər dəfə fərqli ifadə edilib və bu 4 il müddətində həmin şəxs Səfər İmanovla yaxın əlaqədə olub. Burdan sual ortaya çıxır ki, niyə bu 4 il ərzində həmin vətəndaş tərəfindən rəsmi şəkildə komitəyə və digər hüquq-mühafizə orqanlarına müraciətlər edilməmişdir?! Biz məsuliyyətlə qeyd edirik ki, həmin şəxslə komitə sədri xanım Hicran Hüseynovanın işlə təmin edilməsi və hər hansı pul vəsaitinin verilməsi ilə bağlı heç bir əlaqəsi və danışıqlar olmayıb. Qeyd etmək istərdik ki, dövlət komitəsinin sədri xanım Hicran Hüseynova kimisə vəzifəyə təyin etmək üçün inzibati və rəsmi səlahiyyətlərə malik deyil. Onu da əlavə edək ki, bir sıra kütləvi informasiya vasitələrində Səfər İmanovun xanım Hicran Hüseynovanın dayısı oğlu olması ilə bağlı məlumatlar yer alıb və biz bunu təkzib edərək nəzərinizə çatdırmaq istərdik ki, bu məlumat yanlışdır”.

❑ E.HÜSEYNOV



# Tanınmış vəkil bağ evinin qəsdən yandırıldığını iddia edir

## İlham Əsədov: “Şübhələndiyim şəxslər var...”

**Tanınmış vəkil İlham Əsədova məxsus 2 mərtəbəli villa qəsdən yandırılıb. Vəkilin sözlərinə görə, fevralın 16-dan 17-nə keçən gecə Sabunçu rayonu, Nardaran qəsəbəsindəki Bağlar massivində yerləşən 2 mərtəbəli villasında başlanan yanğın yaşayış yerini tamamilə məhv edib. Vəkil “Yeni Müsavat”a deyib ki, villanın qəsdən yandırılmasına dəlalət edən tutarlı sübutlar var: “Fevralin 18-i səhər zəng edib dedilər ki, bağ evin yanıb. Təcili Nardarana getdim. Orada mənim bağımda elektrik cərəyanı, qaz yoxdur. Mənim heç kimlə şəxsi qərəzliyim yoxdur. Yanğın qəsdən törədilib. Yandıran şəxslər hasardan aşmaq üçün divara dəmir dirək söykəyiblər. Şübhələndiyim şəxslər var. Həyətimdə ayaq izləri də var. Bu izlər icraçıların ayaq izləridir”.**

İ.Əsədov olayın vəkillik fəaliyyəti ilə əlaqəli olduğunu istisna etməyib: “Villam mənim vəkillik fəaliyyətimlə əlaqədar yandırılıb. Sifarişçilərin kimliyi haqda məlumatlıyam. Sifarişi verən vəzifəli şəxslərdir. Vəkillik fəaliyyətimlə əlaqədar onların mənafelərinə toxunduğumu bilirəm. Mənə 100 min manata yaxın ziyan dəyib. Bəzi dəqiqləşdirmələr aparıram. Bundan sonra villamın yandırılması sifarişini verənlərin kimliyini açıqlayacağam”.

**İ.Əsədov deyir ki, vaxtilə ağır cinayətlərin araşdırılması ilə məşğul olub. 2005-ci ildən sonra isə vəkillik fəaliyyəti ilə məşğul olmağa başlayıb:** “Mənim çıxdığım işlər haqda vaxtilə mətbuatda çox yazılıb. Hesab edirəm ki, sifarişi verən illərdir ki, məqam gözləyib. İndi belə bir addım atdılar. Məlumatları tam şəkildə dəqiqləşdirəndən sonra bu haqda mətbuata əlavə açıqlama verəcəyəm”.

İ. Əsədov qeyd edib ki, villadakı yanğın Fövqəladə Hallar Nazirliyinin (FHN) yanğından mühafizə xidməti əməkdaşları tərəfindən söndürülüb. Villada olan bütün əşyalar tamamilə yanaraq kül olub.

**Mövzuya qayıdacağıq.**

❑ E. MƏMMƏDƏLİYEV

# “Hakimiyyət Müsavatın indiki rəhbərliyinin qələbəsini təmin etdi”

## “Bu, ADR-lə Müsavatın məhkəmə çəkişməsi deyildi...”

**Müsavat Partiyası ilə Azərbaycan Demokratiya və Rifah Hərəkatı (ADR) arasında aylardır davam edən məhkəmə prosesi fevralın 15-də başa çatıb. Binəqədi Rayon Məhkəməsi ADR-in iddiasını əsassız sayıb. Bu barədə bastainfo.az saytına Müsavatın hüquqlarını müdafiə edən, partiyanın Divan üzvü Osman Kazımov məlumat verib: “Mən öz çıxışımda bu iddianın əsassız olduğunu, üstəlik, şikayətin verilmə vaxtının gecikdirildiyini bildirdim. Müsavatın qurultayı cəmiyyətin, jurnalistlərin gözü qarşısında keçirilib. Nə sübut təqdim edə bilərdilər ki? Onlar qurultayda Azərbaycan tarixinin ən şəffaf seçkisində uduzmuşdular, məhkəmədə də uduzdular”.**

Qeyd edək ki, məhkəmə bitəndən sonra sosial şəbəkələrdə tərəflərin bir-birilərinə qarışıqlı ittihamları yenidən start götürüb.

Müsavat Qadınların Birliyinin sabiq sədri və eyni zamanda Müsavatçıların Hüquqlarının Müdafiə Komitəsinin üzvü **Ellada Məmmədli** musavat.com-a bildirib ki, sözügedən məhkəmə prosesi mətbuatda yanlış təqdim olunur. Onun sözlərinə görə, bu məhkəmə çəkişməsi əslində Müsavatçıların Hüquqlarını Müdafiə Komitəsinin üzvləri ilə Müsavatın indiki rəhbərliyi arasında gedir: “Partiyanın VIII qurultayının nəticələrinin saxta olmasını təsdiq edən faktlar və videomateriallarla məhkəməyə müraciət etmişik. Biz məhkəməyə müraciət edəndə heç Azərbaycan Demokratiya və Rifah Hərəkatı (ADR) təsis edilməmişdi”.



Ellada Məmmədli

**E.Məmmədli bildirib ki, məhkəmə qərarını aldıqdan sonra buna uyğun addım atacaqlar:** “Binəqədi məhkəməsi işi icraata aldı, prosesi 3 ay uzatdı. İddiaya tələb olunan sənədləri son anda qismən təmin etdi. Nəticədə Müsavatın vəkili Osman Kazımovun feysbukda olan yazışmalarına yer ayırdı. Saxtakarlığı aşkar edən faktlara və videoya baxmağa lüzum bilmədi. Ölkədəki hüquq- məhkəmə sisteminin vəziyyəti qənaətbəxş olmasa da, yenə ədalətin qüvvəsinə inanırıq. Müsavatın indiki rəhbərliyinin müsavatçılıq ideologiyasından kənar olduqları bəlli idi. Məhkəmə onların iqtidar projesi ilə hərəkət etdiklərini təsdiq etdi. İqtidara güclü Müsavat lazım deyil. Arif Hacılıya da onu başqan kimi görməyənlər, saxtakarlığını qəbul etməyənlər yox, onu qəbul edənlər lazımdır. İndiyəcən görüşlərdən yayınan, üzümüzə baxmağa cürət edə bilməyən bizimlə bir masada oturmayıb və oturmaz da. Saxta protokolu Ədliyyə Nazirliyi təsdiq etmişdir. İndi tam əminliklə söyləmək olar ki, şərəfli yol keçmiş Müsavat Partiyası 27 sentyabr 2014-cü il tarixində ömrünü başa çatdırdı. Məhkəmə qərarından sonra atacağımız addımlar 10 gündən sonra əlimizə alacağımız qərardan sonra müəyyənləşəcək. Özümüzü məğlub yox, qalib hiss edirik. Çünki Müsavat Partiyasından, Ədliyyə Nazirliyindən ala bilmədiyimiz qurultay protokolunu məhkəmədən aldıq və bir daha VIII qurultayın işində olan saxtakarlığı aşkar etdik”.

❑ Cavanşir ABBASLI

# AFFA prezidenti kim olacaq?

## Bu vəzifəyə ilk namizədin adı açıqlanıb

**Martın 11-də keçiriləcək növbəti Hesabat-Seçki Konfransında baş tutacaq AFFA prezidenti vəzifəsinə ilk namizədin adı açıqlanıb. Apasport.az saytının məlumatına görə, assosiasiyanın hazırkı rəhbəri Rövnəq Abdullayev namizədliyini irəli sürüb. Bu, AFFA-nın Nizamnaməsinin 41-ci maddəsinin 3-cü bəndini əsasən gerçəkləşib. 2 dəfə bu vəzifəyə seçilən Abdullayev növbəti dəfə seçkilərdə qalib gəlsə, üçüncü dördillikdə assosiasiyaya başçılıq edəcək. Qeyd edək ki, Rövnəq Abdullayev ilk dəfə 2008-ci ildə, ikinci dəfə isə 2012-ci ildə AFFA-nın prezidenti seçilib.**

YENİ MÜSAVAT
N 39 (6360) 19 fevral 2016



# Bərabərlikdən bəyirmək

Zamin HACI
zaminhaci@gmail.com

**Bakının rayonlarından birində qardaş bacısını bıçaqlamışdı. Səbəb isə ənənəvi idi: bacı qardaşdan icazəsiz küçəyə çıxıbmış. Ta bacının və qardaşın hər ikisinin 20 yaşdan yuxarı yetkin insanlar olması, hər ikisinin ailə qurması, valideyn olması önəmli deyildir. Bacı boşanıbmış axı! Deməli, qardaş indi onun hərəkət trayektoriyasına nəzarət etməli, cızıqdan çıxanda vaxtlı-vaxtında böyrünə bıçağı soxmalıdır.**

Ancaq belə tipik Azərbaycan mənzərəsini burda təkrarlayıb hörmətli oxucunun ürəyini bulandırmaq istəməzdim, sadəcə, hadisənin sabahısı günü polis idarəsi qardaşı açıb buraxmışdı. Sən demə, yaralı bacının huşu qayıdıb, elə o anda da dərhal şikayətçi olmadığı haqda ərizə yazmışdır. Vəssalam, şüttəmam. Adamı açıb buraxıblar. Bu da sənin üçün hansısa müxalifətçi deyil ki, cibinə dırnaqtutan atıb tutasan.

Hələ bu, hüquq cənnətimizin ləzzətli mənzərələrindən yalnız biridir, başqasını da sizə nəql edim.

Binəqədi rayonunda 5 saylı polis idarəsinin rəisinə basqın edib onu bıçaqlamışdılar. Təzəlikcə həmin hadisədə suçlanan 3 nəfərin cinayət işinə məhkəmədə baxılıb. Rəis gəlib ifadə verib, deyir bunların heç birini tanımıram, dostumun "Mersedes-Galenvagen"i ilə yolda gedirdim *(nə yaxşı bizim belə dostumuz yoxdur, yoxsa bizi də döyərdilər)*, birdən bunlar maşının qabağını kəsdilər, başladılar məni döyməyə. Beysbol ağacı, bıçaq, sillə-təpik... Qısası, rəisin nəql elədiyi ssenarini ver Tarantinoya, babat səhnə çəksin. Ancaq ardıyca rəis görün nə deyib: "Bunların heç birini tanımıram, şikayətçi də deyiləm". He-he... Bəs onda bu məzhəkə nədən ötrüdür? Bəlkə rəis istəyir onlara cəza verilməsin, azadlığa çıxsınlar, məsələni təkətək, qədim dövrlərdəki kimi həll eləsin? Bəlkə rəis şikayətçi olmağı "zapadlo" hesab edir? Nə biləsən... Hər halda, əcaib işdir ki, bir halda şikayət geri götürüləndə bıçaq vuranı azad edirlər, o biri halda isə 11 il cəza istənilir. Axı zarafat üçün olsa da bizim ana qanunda belə maddə yazılıbdır ki, hamı qanun qarşısında bərabərdir! Kim bərabər olmaq istəməsə bər-bər bəyirdilir. Getdim gördüm bir dərədə bir bərbər... Nəsə, bu ayrı yazıdan idi, gəldi nahaq yerə bura düşdü.

Əlbəttə, "bəziləri daha çox bərabərdir" (Oruell), bunun təzahürləri vaxtaşırı üzə çıxır. Deputatxanada iqtisadiyyata aid nəsə "Antidempinq" adında bir qanun müzakirəyə çıxarılmışdı. Devalvasiyadan sonra bəzi deputatlarımız yaman androgenləşiblər, qanun projelərini tənqid etməkdən çəkinmirlər. Fəzail müəllim isə nəinki qocalıb və belə tənqidçi deputatları tutub döymür, əksinə, bəzən özü də onlara qoşulur.

Uzun sözün qısası, deputatlar döşənib qanuna, bir-bir söyürlər. Biri deyir, bu qanun sahibkarı boğacaq, ikincisi deyir, iqtisadiyyat çezəcək, başqası qavalı alıb segah üstündə oxuyur: "Ey dad, əman, əman, bu qanun layihəsi nə üçün öz dilimizdə yazılmayıbdır, eyyyy! Gedin deyin Elman müəllimə, apardı sellər manatı, dadi-bidad, uy, uy, uy". Spiker Oqtay müəllim baxdı ki, sabitlik əldən gedir, deputatxana Ağdam Məşğulluq Mərkəzinə oxşamağa başlayıbdır, göz elədi iqtisadi qanunların otuna-suyuna baxan, asudə vaxtlarında isə musiqi bəstələyən Ziyad Səmədzadə müəllimə. Ziyad müəllim şəhadət barmağı ilə bayaqdan şuluqluq salan Zahid Oruc kimi deputatları hədələyib belə dedi: "Bizim bu qanun layihəsinə dəyişiklik eləməyə heç bir mənəvi hüququmuz yoxdur. Çünki bu layihə cənab prezidentdən gəlib". Əla söhbət idi. Bundan sonra elə bil qurbağa gölünə daş atdılar. Layihə dərhal səsə qoyulmadan yekdilliklə qəbul olundu və elə ordaca qüvvəyə mindi. Heç bir mənəvi hüquqi olmayan tiplərin səni parlament adıyla təmsil eləməsinə baxmaq inanılmaz zövqlü tamaşadır.

Sonda bir şad xəbəri də təkrar yazım, biləsiniz: Ermənistanın əhalisi sürətlə azalırmış. Müharibə başlayanda 3 milyondan çox olsalar da, indi 3 milyondan azdırlar. Təxmini hesablamışam, bu gedişlə 240 ildən sonra orda bir ins-cins qalmayacaq, Qarabağ da İrəvan qarışıq qayıdıb bizim olacaqdır! Səbir edin. Səbir edən dərviş, murada ərmiş.

# Türk səfirdən rus deputatların Qars müqaviləsi açıqlamasına kəskin reaksiya

## Alper Coşqun: "Belə məsuliyyətsiz açıqlamalar qarşısında söyləyəcəyim başqa şey yoxdur"

**Bir neçə gün əvvəl Rusiya Kommunist Partiyasından (KPRF) olan deputatlar Türkiyə ilə 1921-ci ildə bağlanmış dostluq və qardaşlıq müqaviləsinin (Qars sazişinin) ləğv olunmasını təklif edib.**

"Ədalətli Rusiya" fraksiyasından olan deputatlar artıq öz kommunist həmkarlarını dəstəkləyiblər. Deputat Oleq Paxolkov deyib ki, Qars sazişi RF-nin maraqlarının ziddinə imzalanıb. Kommunist Partiyasının üzvləri deyiblər ki, Gürcüstan və Ermənistan da bu sazişin şərtlərini tanımır və onu ədalətsiz hesab edir.

Qeyd edək ki, sözügedən "dostluq və qardaşlığa dair" müqavilə 16 mart 1921-ci ildə RSFSR və Türkiyə Böyük Millət Məclisi hökuməti tərəfindən imzalanıb. Müqavilənin şərtlərinə görə, keçmiş Qars vilayəti, keçmiş Batumi vilayətinin cənub hissəsi və Ağrıdağı ilə birlikdə İrəvan quberniyasının keçmiş Sürməli uyezdi Türkiyənin tərkibinə keçirdi. Məhz bu səbəbdən müasir Ermənistan Qars müqaviləsini tanımaqdan imtina edir. Qars müqaviləsində Azərbaycana aid də hissə var. Bu, Naxçıvan Muxtar Respublikası ilə bağlıdır. Türkiyə və SSRİ onun muxtariyyətinə təminat verirdilər. Ermənilər Naxçıvanın "erməni torpağı" olmasını iddia etdikləri üçün müqaviləni qəbul etmirlər.

**Türkiyənin Rusiyanın döyüş təyyarəsini vurmasından sonra iki ölkə arasında yaşanan gərginliklər fonunda Qars müqaviləsinin gündəmə gəlməsinə müxtəlif şərhlər var. Belə bir iddianın hüquqi əsası varmı və bölgədə vəziyyəti dəyişə biləcəyindən dolayı Ankaranın narahatlığı varmı? Türkiyənin Azərbaycandakı səfiri Alper Coşqun "Yeni Müsavat"ın sualına cavabında bunları bildirib:** "Fikrimcə, ortada üzərində durmağa dəyəcək bir məsələ yoxdur. Rusiyada iki deputatın dilə gətirdiyi - başqa bir ifadə tapa bilmədiyim üçün deyəcəyəm - son dərəcə məsuliyyətsiz bir təşəbbüs haqqında fikir söyləməyi də mənasız sayıram. Amma bir məsələni demək istərdim. Bölgəmizdəki sıxıntılara baxın, Türkiyə-Rusiya münasibətləri ilə əlaqədar məndən eşitdiklərinizə diqqət edin. Halbuki 1 il öncə Türkiyə-Rusiya münasibətlərinin olduğu nöqtəni xatırlayın. O dönəmdə də Ukrayna siyasəti ucbatından Krımın işğalı səbəbi ilə Rusiya ilə anlaşa bilmədiyimiz bir sıra məsələlər var idi. Ancaq əlaqələrimiz çox fərqli bir nöqtədə idi. İndi dayandığımız nöqtəyə, Suriyadakı vəziyyətə baxın. Belə bir vəziyyətdə hər şeydən əvvəl - mən bunu vətəndaş olaraq deyirəm və dünya siyasətçilərinin baxışını nəzərə alıb deyirəm - siyasətçilərdən məsuliyyətli davranmalarını gözləyirəm. Hər halda, bizdən gözləntilər budur ki, aramızda anlaşılmazlıq olmasına rəğmən dava etməyək. Bizim dövlətimiz ortadakı problemlərə rəğmən iki mədəni insan olaraq danışmağımızı gözləyir. Mən də siyasətçilərdən həssas zamanlarda məsuliyyətli olmalarını gözləyirəm. Moskva - Qars anlaşmasını ortaya atıblar. Yaxşı, bu mövzu niyə orda durur? Niyə Moskva və Qars? Daha irəli getdiyimiz halda başqa anlaşmalar ola bilməzmi? Sizin xoşunuza getməyən, ağlınıza gələn anlaşmalar yoxdurmu? Belə bir sərgüzəşti kim, harada dayandıra bilər? Qısacası, belə mənasız sözlərin sonu yoxdur. Məsuliyyətli olmaq lazımdır".



**Səfirə Rusiya və İran arasında Azərbaycanın bölüşdürülməsini rəsmiləşdirən Gülüstan və Türkmənçay sülh müqavilələrini xatırlatdıqda, bunları bildirdi:** "İlk olaraq ağlınıza bunlar gəldi. Təbii ki, bir çox başqaları da ola bilər. Bu gedişlə biz harada dayanacağıq? O zaman biz nədən imtina edirik: əhdə vəfadan, yəni verdiyimiz sözə sədaqətdən, beynəlxalq əməkdaşlığın təməlini təşkil edən beynəlxalq hüquqdan vaz keçirik. İşi haraya aparırıq? Xaosa. Belə məsuliyyətsiz açıqlamalar qarşısında söyləyəcəyim başqa şey yoxdur. Bunları ciddiyə almamaq daha düzgündür. Azərbaycanda bəzi yetkililər bununla bağlı müzakirələr aparır. Düzü, bu məsələnin ortaya atılmasını son dərəcə yersiz və mənasız sayıram".

**E.PAŞASOY**

# Rusiyanın hərbi təlimlərinə ekspertdən sensasion şərh

## Pavel Felqenhauer: "Xəzərdə müharibə, Ankaraya nüvə zərbəsi..."

**Nüfuzlu Rusiya hərbi eksperti, "Novaya qazeta"nın hərbçi şərhçisi Pavel Felqenhauer AzadlıqRadiosunun rus xidmətinə müsahibəsində Rusiyanın bugünlərdə Cənub hərbi dairəsinin qoşunlarını, o cümlədən Xəzər donanmasını qəfil manevrlərə çıxarmasını şərh edib.**



Virtualaz.org xəbər verir ki, ekspert bu təlimlərin birbaşa Türkiyə ilə müharibəyə hazırlıq məqsədi daşıdığını deyib.

"Qüvvələrin döyüş hazırlığının yoxlanılması mahiyyətcə Türkiyə ilə müharibə üçün idi, üstəgəl, Qafqazda, Qarabağdan başlayan müharibə, yəni Azərbaycanla və ya Azərbaycanın iştirakı ilə müharibə"-ekspert bildirib.

**Pavel Felqenhauer** deyib ki, Xəzər donanması Türkiyəyə qarşı ancaq qanadlı raketləri tətbiq edə bilər. Azərbaycanla bağlı məsələ isə ciddidir, onun özünün böyük donanması var. "Ona görə də əgər Türkiyə ilə münasibətlər hərbi toqquşma səviyyəsinə qədər kəskinləşərsə, o zaman müharibənin Qafqaza sıçraması qaçılmaz olacaq. Krım isə Türkiyə ilə istənilən toqquşma üçün platsdarm rolunu oynayacaq"-Felqenhauer deyib.

**Rusiyalı ekspertin fikrincə, Cənub ordusunun, Xəzər və Qara dəniz donanmalarının qəfil hərbi manevrlərini bəziləri Ukraynaya hədə kimi qiymətləndirirdilər. Ancaq Ukrayna silahlı qüvvələrinin Baş qərargahının rəisi deyib ki, ruslar ona bu manevrlərin Kiyevə qarşı olmadığını deyiblər.** "Doğrudan da belədir. Çünki Şimali Qafqaz və Xəzərdəki qüvvələrin Ukraynaya qarşı olmadığı dəqiqdir"-ekspert deyib.

**P.Felqenhauerin fikrincə, Rusiya Suriyaya müdaxilə edəndə düşünmürdü ki, Türkiyə ilə qarşıdurmaya gedəcək. Putin fikirləşirdi ki, türklərlə anlaşma əldə edə biləcək və nələrisə Ərdoğanla bölüşdürmək mümkün olacaq. Ancaq bu, çox ciddi səhv idi. İndi Rusiya hesab edir ki, Türkiyə ilə qarşıdurmaya girsə, NATO onu müdafiə etməyəcək. Bu da yanlış təsəvvürdür.**

"Türkiyə ilə qaşıdurma isə istənilən vaxt başlaya bilər. Onlar yenə bizim təyyarəmizi vuracaqlar, biz də onların təyyarəsini vuracağıq. Bəyəm azdır? Gec-tez onlar Suriyanın şimalına qoşun yeridəcəklər, çünki kürd qüvvələri arasında dəhlizi bağlamaq türklər üçün həyati əhəmiyyətli məsələdir. Eynən Ukraynanın şərqində olduğu kimi, Suriyanın şimalında da Rusiyanın dəstəklədiyi qüvvələr sərhədə nə qədər yaxınlaşsa, Türkiyə onlara daha çox zərbə endirəcək. Geriyə, Türkiyəyə atəş açmaq isə olmaz. Dərhal NATO-nun 5-ci maddəsi yada düşəcək. Bu, çox təhlükəli situasiyadır və eskalasiyaya gətirib çıxara bilər. Rusiyanın "Varyaq" kreyseri Suriyanın Latakiyə sahillərindədir. Ona görə ki, havada döyüş başlasa, göyərtəsindəki zenit raketləri Türkiyə təyyarələrini vursun.

"Varyaq" Türkiyə təyyarəsini vuracaq, türk sualtı qayığı isə onu uzaqmənzilli raketlə batıracaq. Yaxud türk freqatı uzaqmənzilli raketlə vuracaq. "Varyaq" ya batacaq, ya yanacaq, yüzlərlə dənizçimiz həlak olacaq. Yeri gəlmişkən, "Varyaq"da taktiki nüvə silahının olduğu istisna deyil. Rusiya gəmisi batsa və yüzlərlə dənizçi həlak olsa, Kreml nə edəcək? Ankaraya zərbə endirmək lazım gələcək. Uzaqmənzilli qanadlı raketlərlə biz heç Ərdoğanın sarayını da dağıda bilmərik, çünki həddən artıq böyükdür. Deməli, məhdud nüvə zərbəsi endirmək lazımdır. Beləliklə də vəziyyət nəzarətdən çıxacaq, bunu isə çətin ki, kimsə istəsin"-Pavel Felqenhauer deyib.

YENİ MÜSAVAT
N 39 (6360) 19 fevral 2016

**ABŞ Helsinki Komissiyasının sədri, konqresmen Krist Smitin Azərbaycan hakimiyyətinə qarşı sanksiyalara dair Konqresə təqdim etdiyi qanun layihəsinə onun daha iki həmkarı qoşulub. Bunlar Nyu-York ştatından olan demokrat konqresmen Luiza Sloter və Nevada ştatından olan Co Hekdir. Konqresmen Luiza Sloter (Nyu-Yorkdan demokrat) vətəndaşların hüquq və azadlıqlarının pozulmasına görə Azərbaycanın rəsmi şəxslərinə qarşı sanksiyanın tətbiqini nəzərdə tutan qanun layihəsinə qoşulan ilk Konqres üzvüdür.**

# Konqresdəki sanksiya layihəsinə daha iki konqresmen qoşulub

## Ekspertlərdən fərqli proqnozlar



"Azərbaycan demokratiya aktı" adlı qanun layihəsi 2015-ci ilin dekabrında Helsinki Komissiyasında qəbul edilərək Konqresə irəli sürülüb. Qanun layihəsi Azərbaycanda hökumət üzvlərinə qarşı müxtəlif sanksiyaların tətbiq olunmasını nəzərdə tutur.

Azərbaycan hakimiyyəti qanun layihəsinin qəbul olunmaması və gündəmdən çıxarılması üçün diplomatik kanallar vasitəsilə iş aparır. Bir sıra hakimiyyət təmsilçiləri Smitin layihəsinin ermənilərin sifarişi ilə hazırlandığını bəyan etməklə yanaşı, son vaxtlar belə fikirlər də səsləndirməyə başlayıblar ki, layihə artıq gündəmdən çıxmış sayıla bilər.

**K.Smit bir neçə gün öncə Bakıdan onun ünvanına səslənən ittihamları şərh edib. O deyib ki, "Azərbaycan demokratiya aktı"nın ermənilərlə heç bir əlaqəsi yoxdur. Sənəddə Azərbaycanda insan haqlarından danışılır:** "Xədicə İsmayılova kimi jurnalistlər də daxil olmaqla, bir çox insanlar öz araşdırmalarına görə həbs olunanda biz "Azərbaycan demokratiya aktı" kimi sənədləri qəbul edirik. Ölkə parlamenti və hökumətin buna reaksiyası düşüncəsizliyin təzahürüdür, çünki onlar tamamilə həqiqətəuyğun olmayan fikirlər söylədilər. Əsasən bildirdilər ki, bu aktı ermənilər mənə sifariş ediblər. Ermənilərin buna heç bir aidiyyəti yoxdur, bundan əlavə, bu qanun layihəsinin hazırlanmasından onların xəbəri olmayıb.

Bu qanun layihəsində məqsəd Azərbaycanda islahatlara təkan vermək, cinayət törətməyən insanları həbsdən azad etdirməkdir".

Bəs Smitin sanksiyaları nəzərdə tutan məlum layihəsinə daha iki konqresmenin qoşulması bu məsələnin gündəmdən çıxacağı barədə deyilənlərin əsassız olduğunu ortaya qoyurmu? Layihənin mart ayında Konqresdə müzakirəyə çıxarılacağı gözlənilirmi?

**Yeni AXCP-nin sədri Razi Nurullayev bildirdi ki, konqresmen Krist Smitin Azərbaycana qarşı sanksiyaları nəzərdə tutan demokratiya aktının tezliklə qəbul edilməsi gözlənilmir. Daha iki konqresmenin bu akta qoşulmasına gəlincə, bu kimi aktlar 3 nəfərin iradəsi ilə olmur. Yeni qoşulanlar və səs verənlərin olmaması mümkün deyil, lakin ABŞ bütün vaxtlarda geosiyasi maraqlarını önə çəkən ölkə olub:** "Sırf demokratiya məqsədlərinə görə Azərbaycana və yaxud digər ölkəyə sanksiya tətbiq edilməsi mümkün görünmür. Hazırda ABŞ geosiyasi maraqlarına uyğun olaraq əvvəllər tətbiq etdiyi sanksiyaları aradan qaldırır. Əgər ABŞ demokratik məqsədlər üçün sanksiyalar tətbiq etsəydi, o zaman gərək bütün ərəb ölkələrinə, öncəliklə Səudiyyə Ərəbistanına, Küveytə, Misirə və digərlərinə bunu rəva görərdi. Rəva görmür, çünki geosiyasi maraqları var. Azərbaycan da belə. Məgər Kubada insan hüquqları və demokratiya ilə bağlı məsələlər həll olundu? Daha betərdir. Lakin ABŞ 1959-cu ildən Kubaya tətbiq etdiyi sanksiyaları ləğv etdi. İranda insan hüquq və azadlıqları betərdir. Amma sanksiyalar aradan qaldırıldı. Vacib olan geosiyasi maraqlar üstün gəldi. İrana nüvə silahına malik olmağa icazə vermədilər. Amma digər problemlərə göz yumuldu. Onlarla digər nümunələr də var. İnanıram ki, Azərbaycan hakimiyyəti özünün ABŞ-ın geosiyasi maraqlarına daxil olmasını təmin edəcək. Bunun çalarlarını görməkdəyəm. Əgər İran faktoru Azərbaycanın önəmini azaldıbsa, Rusiya faktoru qüvvəyə minib. Artıq Azərbaycan xarici siyasətində manevrlər etməyə başlayıb. Elə bilirsiniz ki, XİN müavini Araz Əzimovun Bəşər Əsədi dəstəkləməsi təsadüfi jestdir? Xeyr. Bu bir mesajdır. İndi ABŞ Azərbaycana minnətçi düşməlidir ki, bunu etmə. Bunu etməməyin isə şərtləri var. Azərbaycan geosiyasi arenada itirdiyi nöqtələri başqa yüksəkliklərlə əvəz etməyə çalışır. Buna nail də olacaq".

**Beynəlxalq Helsinki Vətəndaş Assambleyasının həmsədri Arzu Abdullayeva isə bildirdi ki, sanksiyaları nəzərdə tutan qanun layihəsi Azərbaycanda demokratiya, insan haqları sahəsində vəziyyətin müsbətə dəyişməsi, siyasi məhbusların azadlığa buraxılmasına nail olmaq üçün hazırlanıb. Əgər qeyd olunan məsələlər həllini tapsa, həmin layihə qəbul edilməz. Lakin siyasi məhbuslar azad olunmayacağı, demokratiya sahəsində islahatlar aparılmadığı halda layihənin Konqresin müzakirəsinə çıxarılaraq qəbul edilməsi gözlənilir:** "Dünyanın bir sıra ölkələrinə qarşı da zaman-zaman bu cür sanksiya layihələri gündəmə gəlib. Həmin ölkələr qaldırılan problemləri həll ediblər. Ona görə sanksiyaları nəzərdə tutan layihə qəbul edilməyib. Danimarkanın, Macarıstanın adını misal olaraq qeyd edə bilərəm. Azərbaycan hakimiyyəti də həlli istənilən problemləri həll etsə, çox ağıllı addım olardı. Nə qədər ki, o problemlər qalır, Smitin hazırladığı qanun layihəsi gündəmdən çıxarılmayacaq və hər an Konqresin müzakirəsinə çıxarılması ehtimalı qalacaq. Onlar məqsədlərinə çatmayınca bu məsələ gündəmdə qalacaq. Başlayıblarsa axıra qədər gedəcəklər".

**A.Abdullayeva "Helsinki Komissiyasının sədri Krist Smitlə tanışlığının olmadığını, sadəcə, rəhbərlik etdiyi qurumların adlarında oxşarlıq olduğunu vurğuladı:** "Helsinki Komissiyası ilə Helsinki Vətəndaş Assambleyası arasında heç bir bağlılıq yoxdur. Sadəcə, adları bir-birinə bənzəyir. Bir də ki, məqsədlərimiz eynidir. Məqsədlərimiz demokratiya, insan haqlarının bərqərar olması, sülhdür".

❑ **E.SEYİDAĞA**

# Azərbaycan İslam koalisiyasına qoşula bilər

## Türkiyədəki son qanlı terror aktlarından sonra rəsmi Bakı məsələyə yenidən baxmaq qərarı verib; nazir Elmar Məmmədyarov öz müavinini təkzib etdi

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana, baş nazir Əhməd Davudoğlunun isə Brüsselə səfərləri qanlı və xain terror aktlarına görə təxirə salındı. Bununla belə, qardaş ölkənin xarici siyasət idarəsinin başçısı Mövlud Çavuşoğlu Bakıya təşrif buyura bildi.**



Xəbər verdiyimiz kimi, bu gün Tiflisdə Azərbaycan, Türkiyə və Gürcüstan xarici işlər nazirləri səviyyəsində növbəti üçtərəfli görüş planlaşdırılıb. Dünən isə Mövlud Çavuşoğlunu Bakıda Azərbaycan prezidenti İlham Əliyev qəbul edib.

Fevralın 17-də Ankarada törədilmiş terror aktı nəticəsində çoxsaylı insanların həlak olması ilə bağlı Mövlud Çavuşoğluna və türk xalqına başsağlığı verən İlham Əliyev bu terrorun Azərbaycanı da sarsıtdığını vurğulayaraq, hadisənin ölkəmizdə qətiyyətlə pislendiyini və qınandığını deyib. Prezident həmişə olduğu kimi, bu ağır günlərdə də Azərbaycan xalqının türk xalqının yanında olduğunu qeyd edib: **"Fevralın 17-də qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan axşam saatlarında mənə telefonla zəng etdi və bildirdi ki, bu hadisə ilə əlaqədar Bakıya gələ bilməyəcək. Təbii ki, biz bunu anlayırıq. Mən ona da Azərbaycan xalqının başsağlığını ifadə etdim, şəhid olanlara Allahdan rəhmət, yaxınlarına səbir və yaralı qardaşlarımıza şəfa dilədim".**

Ölkə başçısı Türkiyə prezidenti üçün münasib olan bir vaxtda Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti iclasının ölkəmizdə keçiriləcəyi ilə bağlı razılaşdıqlarını da qeyd edib.

Öz növbəsində Mövlud Çavuşoğlu Ankarada törədilmiş terror aktı nəticəsində insanların həlak olması ilə bağlı verdiyi başsağlığına, qardaş Azərbaycan xalqının və şəxsən prezident İlham Əliyevin hər zaman olduğu kimi, bu ağır günlərdə də Türkiyənin və türk xalqının yanında olmasına görə Azərbaycanın dövlət başçısına minnətdarlığını bildirib.

Terrorun bütün formalarına qarşı mübarizənin vacibliyini vurğulayan Çavuşoğlu terrora qarşı mübarizənin bundan sonra da davam etdiriləcəyini deyib. O, Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti iclasının yaxın zamanlarda gerçəkləşəcəyinə və dövlət başçılarının liderliyi ilə ölkələrimiz arasında münasibətlərin daha da irəliyə aparılacağına əminliyini ifadə edib.

Türkiyə xarici siyasət idarəsinin rəhbəri Azərbaycan XİN başçısı Elmar Məmmədyarovla da bir araya gəlib. Elmar Məmmədyarov da terror aktı ilə bağlı başsağlığı verib. **"Bizim bu məsələdə mövqeyimiz aydındır - biz terrorun hər bir formasını pisləyirik"**, deyə Məmmədyarov bildirib. "Terrorla mübarizə çox mühümdür və hazırda Azərbaycan İslam antiterror koalisiyasında iştirakı məsələsinə baxır. Lakin hələlik bununla bağlı qərar verilməyib" - deyib Azərbaycan XİN başçısı.

***

Məmmədyarovun məhz türkiyəli həmkarı ilə görüşdə və Ankaradakı terror aktlarından bir gün sonra Azərbaycanın islam koalisiyasının mümkünlüyünü dilə gətirməsi diqqət çəkir və bəzi maraqlı nüansları üzə çıxarır.

Xatırladaq ki, terror əleyhinə İslam ölkələrindən ibarət belə bir hərbi koalisiyanın yaradılması təşəbbüsü ilə Səudiyyə Ərəbistanı çıxış edib. Ər-Riyad quruma qoşulmaq üçün ilin noyabrında Azərbaycana da rəsmi təklif göndərib. Azərbaycanın iki ən yaxın müttəfiqinin - Türkiyə və nüvə dövləti Pakistanın yer aldığı 37 ölkədən ibarət koalisiya qüvvələri hazırda Səudiyyə Ərəbistanında təlimlər keçir.

Siyasi müşahidəçilərə görə, bu, əslində İran və Rusiyaya qarşı formalaşan bir koalisiyadır, çünki hədəflərindən biri də artıq öz legitimliyini itirmiş Əsəd rejimini devirməkdir. Təsadüfi deyil ki, Tehran və Moskva bu koalisiyaya qarşı çıxıb.

Bu mənada Elmar Məmmədyarovun İslam koalisiyası ilə bağlı fikri bu mürəkkəb və ağır dönəndə qardaş ölkəyə açıq dəstək mesajı olmaqla yanaşı, eyni dərəcədə İran və Rusiyaya əks-işarəli çatdırış sayıla bilər. Yəni kritik məqamda Bakı Moskva və Tehranın deyil, hər halda, Ankaranın yanında yer alacaq.

Əlavə edək ki, bu mövqe onun müavini Araz Əzimovun iki gün öncə Suriya ilə bağlı Azərbaycan adından sergilədiyi mövqeyi sıfırlayır.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 39 (6360) 19 fevral 2016

**Azərbaycan cəmiyyətinin siyasi-iqtisadi, psixoloji durumu haqqında çox yazmışıq, çox oxumuşuq. Cəmiyyətimizin mənəvi baxışa, fəlsəfi təhlilə ehtiyacı var. Son dövrlər cəmiyyətdə kasıblıq həddinin artması, insanların aqressiyaya meyl etməsi, qətllər, intiharlar ümumi mənzərənin heç də ürəkaçan olmadığından xəbər verir. Bəs görəsən, tanınmış filosoflar bu durumun fəlsəfəsini necə izah edirlər? Fəlsəfədən söz düşdüsə, həmsöhbətimiz Niyazi Mehdidən qeyri-risi ola bilməz. Tanınmış filosofla onun şəxsi həyatı, yaradıcılığı və cəmiyyətə baxışı haqqında söhbət etdik.**



# "Hərdən qurd olub ulamağım gəlir"

## Niyazi Mehdi: "Bizim dövrün gəncləri daha çox görməmiş idilər"

***- Niyazi bəy, vətəndə özünüzü necə hiss edirsiniz?***

- Mısmırıqlı, qanıqara yerimək üçün yetərincə səbəb var. Bunun üstünə son 10 ildə dünyasını dəyişmiş dostları da gəlsəm, lap Vaqif İbrahimoğlunun "Oğul" tamaşasındakı kimi qurd olub ulamağım gəlir. Ancaq özümə "dur!" deyirəm, hərçənd heç də həmişə alınmır. Ona görə "dur" deyirəm ki, üzündən dərd-qəm yağan adam çevrəsi üçün və özünün ürək-damar sistemi üçün polonium gəzdirən adam qədər qorxuludur. Salam verəndə, küçədə təkcə göyçək qızlara yox, qoca qadınlara da gülümsəyəndə sən həm də şəhərin ekolojisinə kömək edirsən. Bütün bunları neyçün deyirəm? Onunçün ki, çevrənə işıq səpməlisən, qanın qara olsa da...

***- İşləriniz necədir, hazırda nə ilə məşğulsunuz?***

- "Boyat düşüncələr" kitabını hazırlayıram. Kompyüterimdə olan yazıları gözdən keçirib oradan ifadəli deyimləri "Boyat düşüncələr" adlı əlyazmama toplayıram. Gələcəkdə kim mənimlə ilgilənsə, əziyyət çəkib bütün yazılarımı oxumayacaq. "Boyat düşüncələr"ə baxmaq dadına çatacaq.

***- Niyazi bəy, adətən oxucular deyir ki, sizin danışdıqlarınızı çox çətin anlayırlar, sizcə, niyə belədir?***

- Bununla bağlı dediyimi "Boyat düşüncələr"ə salmışam. Səbəb sözdə deyil, "əyri strukturların" oyunundadır, mədəniyyətin ən müxtəlif qatları və olayları arasında əyri trayektoriyada düşüncə gəzintisi aparan yazı tərzindədir. Səbəb odur ki, yazarlarımızın deyim tərzi uzun illərdən bəridir azəri oxucusunu pis öyrədib. Biz Azərbaycan türkcəsində dolaşıqlara varıb, orada əlləşən yazılara öyrəşməmişik. Bizim yazı qavrayışımız da nəyi yaxşı danışıq saymağımız da yalnız "hamar danışmaq", "axıcı olmaq" estetikasından gəlir.

***- Siz illər sonra bir övladınızı tapmışdınız. O zaman biz də çəkmişdik sizi... İndi necədir münasibətləriniz?***

- Uşaq adamın yanında böyüməyəndə onu çox istəmək üçün illər və olaylar gərəkir. Qadının neçə uşaq doğmasında da limit var, bədən o limiti aşa bilməz. Kişi isə Atilla kimi 300 uşağı belindən gətirə bilər. Ona görə də anaya baxanda ata uşaqla ilgili daha çox anonim ola bilən varlıqdır. Bu səbəbdən də 34 yaşında oğluna, qızına rast gələndə sevgi üçün zamana ehtiyac olur. Biz Ştefanla (oğlu- L.N), artıq bu "sınaq müddətini" keçmişik. İndi yanımdadır, bir həftəliyə gəlib. Bundan qabaq isə avqust ayında 10-15 gün yanımızda qalmışdı.



## "Mollaların yasda söhbətləri onların özləri ilə bərabər, dini də gözdən salır"

***- Niyazi bəy, keçək cəmiyyət məsələlərinə... Ölkədə devalvasiya olandan sonra insanların psixoloji durumunu necə qiymətləndirirsiniz?***

- Bütünlükdə heç kim iqtisadi böhrandan sığortalanmayıb. Ancaq bizim rəsmilərin sevdiyi "Avropa da krizisdədir" məsələsində bir fərq var. Bu böhranı adi adamlar çiyinlərində duymurlar. Baxın, Batıda ac adamları doydurmaq, qeydinə qalmaq üçün necə xeyriyyə ocaqları işləyir. Bəs bizdə? O gün "Təzəpir"də hüzr mərasimindən sonra gördüm ki, bir qrup qadın gəlib uşaqlarına, evlərinə səliqə ilə bükülmüş ehsan aparır. Həm kədərləndim, həm də sevindim. Ancaq şadlıq evlərindəki məclislərdən sonra da ac adamlara eyni yardım edilirmi? Bilmirəm...

***- Devalvasiyanın mənfi cəhətləri bəllidir. Bəs Azərbaycan insanına müsbət nəsə qazandıra bilərmi?***

- Azərbaycanda iri bizneslə məşğul olanların hamısı monopoliya və "tapış" prinsipi üzündən tezcə və böyük faizlə qazanc götürmək ideyası ilə korlanıblar. Hamı əziyyətli və xırda faizlə qazanmağı qazanc saymır. İndiki iqtisadi həyatımızda dövlət hamıda asan və tezcə "qaz vurub qazan doldurmaq" mərəzini öldürməlidir.

İndi Azərbaycan insanını populist çıxışlarla aldatmaq xeyli çətinləşib. Hakimiyyətin iqtisadi siyasətinə tənqidi, skeptik yanaşanlar atıb.

***- Cəmiyyətdə intihar, qətl, cinayət halları artır... Sizcə, insanlar artıq Allahdan qorxmur?***

- Məncə, intihar edənlərin çoxu heç bilmir ki, İslamda bu günahdır. Bəlkə də onlara elə gəlir ki, ölümlərini tezləşdirməklə bizdən qabaq behiştə çatırlar.

## "34 yaşında oğluna rast gələndə sevgi üçün zamana ehtiyac olur"

***- Adətən insanların başına gələn pis hadisələr, kasıblıq, dərd-bəla insanı Allaha yaxınlaşdırır. Sizcə, indi niyə belə olmadı?***

- Yox, başqa fikir də var. Ramakrişna deyərdi ki, ac adamla Tanrı haqqında danışmaq mənasızdır.

***- Niyazi bəy, televiziyaların işini necə qiymətləndirirsiniz? Yerli telekanallara baxırsınızmı? Nəyə baxırsınız daha çox?***

- Demək olar ki, baxmıram. Bəzən bir-iki dəqiqə ərzində gördüklərimdən gəldiyim nəticələr isə ürəkaçan deyil. Televiziyada ki maraqlı tok-şou olmadı, apar qaytar.

***- Yeni çəkilən film və serialları necə qiymətləndirirsiniz?***

- Az maraqlanıram. Ancaq bir ay qabaq olardı, "Oğlan evi" filminə baxdım. Başlanğıcda özümdə ilginc psixoanalitik hal gördüm. Məni ilk kadrlardan gülmək tutanda gördüm, özümü saxlayıram. Paxıllığa oxşar bir hal idi. Sanki qorxurdum gülən də "hır-hır" TV verilişlərində uğunub gedən səviyyəsiz adamlara oxşayacam. Bir an sonra özümə hirsləndim ki, istedadlı filmdir, doyunca gül. Sözsüz, film Batının min dəfə işlənmiş fırıldaq filmlərinin həyat sintaqmalarında və ya formulalarında qurulub. Ancaq bu formulaların qəlibinə salınan Azərbaycan materialları əla idi. Mən axırıncı dəfə, deyəsən, Vaqif İbrahimoğlunun komediyalarında belə gülmüşdüm. Filmik hoqqalarda KVN-lə yanaşı Vaqif üslubunu da sezirdim. Fərda Amində isə rəhmətlik Yaşar Nurinin aktyor maskalarından cizgilər gördüm. 80-ci illərdə mən bu maskadan yazmışdım.

## "Məncə, intihar edənlərin çoxu heç bilmir ki, İslamda bu günahdır"

***- Azərbaycanda söz azadlığı hansı rəngdədir?***

- 2000-ci ildən sonra söz azadlığının boğulması ilə dolu illərdə mən demişdim ki, gəlin insaflı olaq: kültür dünyası ilə bağlı bizdə xeyli geniş söz azadlığı var. İstəyirsən, homoseksualları tərifə, istəyirsən pislə, istəyirsən ateist yazılar yaz, istəyirsən dindar yazılar yaz, hamısı olar. Söz azadlığı yalnız siyasi məsələlərə gələndə daralır və pozulur. Həbs olunanlardan sonra içimizdə öz senzuramız da işləməyə başlayıb.

***- Sizcə, insanlar mənəvi inkişafa, mənəvi sakitliyə necə nail olmalıdırlar?***

- Mənim "hərtərəfli inkişaf etmiş adam" deyimindən zəhləm gedir. Mənəvi inkişaf və sakitlik də bilmirəm nədir. Bircə onu bilirəm ki, toplumda elə ab-hava, elə iqtisadi vəziyyət ola bilər ki, adamların əsəbi, yalançı, qışqırıqçı olmasına az bəhanələri qalar. Normala yaxın durumda musiqi, dini və ya fəlsəfi söhbət insanlara kömək edir. Yeri gəlmişkən, dini söhbət deyəndə yasda mollaların əhvalatlarını, "ibrətamiz" məsələlərin dilində qurulmuş söhbətlərini demirəm. Onlar özləri ilə bərabər, İslamı da gözdən salırlar.

***- Niyazi bəy, müasir Azərbaycan yazarlarından kimləri oxuyursunuz, kimləri sevmirsiniz? Sizcə, dövrün ədəbiyyatı necə olmalıdır?***

- "Sevmirəm"i deməyəcəyəm. Ancaq ilk cümlələrindən məni darıxdıran yazarlar çoxdur. Yaşlı nəsildən bircə Kamal Abdulladır ki, "Gizli Dədə Qorqud", "Sehirbazlar dərəsi", "Unutmağa kimsə yox" romanları, hekayələri ilə mənim başımı, duyğularımı işə salıb. Son oxuduğum roman isə Aydın Talıbzadənin "Əbuhüb" romanıdır.

Postmodernizmdə məntiq laxlamaları ilə ilgili Liotar sayəsində bəyənilən bir termininə toxunum. Söhbət paraloqiyadan gedir. Yunanca bu söz məntiqsiz danışığı, daha dəqiq, yanlış mühakimələri bildirir. Liotara görə, postmodernizm fəlsəfədə, ədəbiyyatda məntiq, düzgün düşünüş, səlis danşıq qaydalarını pozan paraloqiyadan geniş istifadə edir. Hətta belə demək olar: bir çox postmodernist fəlsəfi diskurslar paraloqist deyimlərdir.

Düşüncə və sənət tarixinin əcaib trayektoriyası var. Hamı əxlaqlı olanda yaradıcı kəs antiəxlaq, antimənəviyyat sapıntılarına keçir. Tolstoyun Anna Kareninası, Floberin Madam Bovarisi, Cəfər Cabbarlının Sevili hərəsi bir şəkildə buna örnək. Biz amur məsələlərində tarixən fransız qadınlarını və kişilərini xeyli sərbəst, məsuliyyətsiz sayırıq. Ancaq bir yerdə oxumuşam ki, fransız qadını və kişisi əsl katoliklər kimi belə olmayıblar, onları fransız ədəbiyyatı "korlayıb". Əslində modernizmin baş fiqurlarının çoxunun *(Modelyani, Lotrek, Dali)* bohem sənətçi, yəni normal insanların dəyərləri ilə hesablaşmayan sənətçi olması bu sapıtma və sapındırma tendensiyanın törəməsidir. Mən Aydın Talıbzadənin dediyim romanına postmodernist paraloqistikadan baxanda "niyə ondakı uyğunsuzluqlar, suç motivləri belə təsirli görünür" sorusuna cavab tapıdım. Romanda Ortaçağa aid kəsimdə deyim var: "Toltu bəy kəlməsi min manata danışan kişilərdəndi". Ortaçağda bizdə "manat" pul vahidi yox idi, axı... Aydın bunu bilir, ancaq tərscəsinə anaxronizmə, yəni zaman pozuntularına yol verir. Başqa anaxronizm ki, söyləmi *(narrasiyanı)* paraloqistik edir. İslam Ortaçağı ilə türk-monqol şirk *(bütpərəst)* dünyasını elə qarışığa salır ki, bilmirsən nə nədədir. Romanda Tuncalın dünyası çağdaş dünyadır. Toltı bəyin dünyası Ortaçağdır. Ancaq bu Ortaçağın içinə heç bir məntiqi əsas verilmədən arxaika girib. Cingöz xan öləndə 40 bakirənin öldürülməsi arxaikadır, girib Ortaçağa. Romanda hibridlik, sinkretizm, simbiozluq və bunun məntiqlə əsalandırılmaması var. Bax, budur onun söyləminin postmodernist paraloqiyası.

Siz bir romandan deyimlərə baxın, onlardan Nitçe ruhu da, Avqustin fəlsəfəsi də sezilir: "Biz sevəndə kölə oluruq, çünki sevgimiz üçün hər şeyə razı oluruq, donuz otarmağa, boynumuza xaç asmağa (Şeyx Sənana eyham)".

"Bir tərəfdən, biz Tanrını şərəfləndiririk, deyirik ucalardan ucasan (Dədə Qorqud sözü), o biri tərəfdən isə Tanrını öz ucalığından asırıq, asırıq bizə borclu adamı boğazından asdığımız kimi".

"İndi heç hara getmir, heç hardan gəlmir". "Keçmiş əbədi dayanıb". "Gələcək əbədi gəlir". Bu deyimlərdə Platonun da, Avqustinin də səsi var.

***- Niyazi bəy, ədəbi təhlilləriniz çox maraqlıdır. Həm də etiraf edim ki, çox qəliz. Mənəviyyat məsələsinə toxundunuz. Bəs Azərbaycan gəncinin mənəviyyatı sizi qane edirmi?***

- Mənim gənclərin çoxunun mənəviyyatını həzm etməyə tolerantlıq gücüm çatmır. Ancaq qanıram ki, bizlər gənc olanda bizdən narazı idilər, indi də biz narazıyıq. Hərçənd bizdən narazı olanlar indiki bizlər qədər müasir, modernist deyildilər.

***- Niyazi bəy, ənənəvi bir müqayisə aparaq... Sizin dövrün gəncliyi ilə hazırkı gəncliyi müqayisə etsək, ortaya hansı fərqlər çıxar?***

- O gənclər arasında millətçilik, türkçülük daha çox dəbdə idi, nəinki indi. O gənclər daha çox görməmiş idilər, nəinki indi. O gənclər sevgi məsələsində daha çox romantik idilər. Ancaq bu cidi sorunun üstündə baş sındırmaq lazımdır.

***- Azərbaycan insanını inkişaf dəyərlərinə görə, 10 ballıq şkala üzrə necə ilə qiymətləndirərdiniz?***

- Çətin sualdır. Nə bilim, bəlkə 6-7.

**Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 39 (6360) 19 fevral 2016

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**ATƏT-in Minsk Qrupunun Dağlıq Qarabağ konfliktini dinc yolla həll eləmək iqtidarında olmadığı artıq daşlaşmış həqiqət sayıla bilər. Qalır, sadəcə, yeni və daha işlək həll mexanizmləri tapılanadək formal da olsa onun "xidmətlərindən" yararlanmaq.**






# Minsk Qrupu - işğalçı Ermənistan üçün "xilas kəməri"

## Ermənilərin israrla başqa danışıq formatları əleyhinə çıxmasının üç mühüm səbəbi; əgər yeni formatlarda da ABŞ və Rusiya dominant olacaqsa, təcavüzkar nədən narahatdır?..

Ərazisinin 20%-i düşmən tapdağında olan Azərbaycan hələ ki buna məhkumdur. Hərgah, Bakı rəsmilərinin son bəyanatlarından belə bir qənaət hasil olur ki, "haqqı nahaqdan ayıra bilməyən" həmsədrlərdən pozitiv dəyişiklik gözləməyə dəyməz. Bununla belə, paralel surətdə format axtarışları da davam etdirilməlidir. AŞ PA, Avropa Birliyi müstəviləri bu formatlardan biri ola bilər - hərçənd AŞ PA-da Qarabağa dair qətnamənin qəbulunun Minsk Qrupu həmsədrlərinin də müdaxiləsi hesabına əngəllənməsi göstərdi ki, bu, elə də asan olmayacaq.

Bundan ötrü əlbəttə ki, Azərbaycan güclü müttəfiqlər tapmalı, beynəlxalq səviyyədə lobbiçiliyi gücləndirməlidir. Hələliksə turist-həmsədrlərin nazı ilə oynamaq, onların ermənipərəst mövqelərinə dözmək lazım gələcək. Bəs ermənilər nədən israrla Azərbaycanın yeni format axtarışına çıxmasına ifrat qıcıqlı və əsəbi yanaşırlar, faktiki, başqa həll formatlarını yaxına buraxmırlar?

***

**Əsas səbəb əlbəttə ki, Minsk Qrupunun 23 illik danışıqlar prosesində daha çox işğalçı tərəfin maraqlarını müdafiə eləməsidir. Nədən ibarətdir erməni maraqları? Onları bir daha sadalayaq:**

**1.** Status-kvonun saxlanması və buna görə Ermənistana heç bir söz, irad bildirilməməsi, əksinə, cəbhə xəttindəki gərginliyə görə vasitəçilərin daha çox Azərbaycanı qınaq hədəfi eləməsi *(2014-cü ilin noyabrında Ağdam səması üzərində iki işğalçı erməni hərbi vertolyotunun vurulub salınmasına həmsədrlərin verdiyi reaksiyanı yada salın).*

**2.** Həmsədrlərin Ermənistanın təcavüzkar ölkə kimi tanımaqdan imtina eləməsi, BMT Təhlükəsizlik Şurasının Qarabağa dair qətnamələrinin unudulması, Avropa Şurasının, Avropa Parlamentinin, İslam Əməkdaşlıq Təşkilatının, digər mötəbər beynəlxalq təşkilatların bu qəbildən ədalətli qətnamələrinin qulaqardı edilməsi.

**3.** Nəhayət, ən əsası, Minsk Qrupu ermənilərin yatıb yuxuda belə görmədikləri bir üstünlüyü onlara qazandırıb - separatçı rejimə öz müqəddəratını təyinetmə hüququnu 7 elementdən biri kimi "Madrid sənədinə" daxil eləməklə.

Sadalanan səbəblərdən işğalçı tərəf narahatdır ki, danışıqlar başqa formata keçirilsə, onların işğalı və separatçılığı davam eləməsi üçün zəmin olan bu üç üstünlük əldən gedər. Çünki yeni formatda ABŞ və Rusiyanın dominant olacağına rəğmən, hər şey sıfırdan başlaya, beynəlxalq hüquq normaları, BMT TŞ-nin Qarabağa dair məlum sənədləri əsas götürülə bilər - hansının önünü ki, nə Kreml, nə də Vaşinqton artıq almayacaq. Üstəlik, yeni həll formatında Türkiyə və Almaniya kimi obyektiv mövqeli dövlətlərin də təmsil olunma şansı yüksəkdir. Çünki ABŞ-Rusiya-Fransa "üçlüyü" problemin həllinə qadir olmadığını artıq isbatlayıb.

***

Bu üzdən ermənilər Minsk Qrupundan bərk-bərk yapışıb və onun ləğvindən ciddi şəkildə əndişə keçirirlər. Son olaraq belə əndişəli mövqeyi Ermənistanın BMT-dəki daimi nümayəndəsi Zöhrab Mnasakanyan ortaya qoyub.

**"Azərbaycan tərəfdən nifrət və aqressiya, insan haqlarının pozulması, daimi silahlanma və ATƏT-in Minsk Qrupu çərçivəsində danışıqlar prosesinin inkar edilməsi Dağlıq Qarabağ "xalqı"nın fiziki mövcudluğunu təhdid edir"**, - deyə o, "BMT-nin Nizamnamə hədəfləri və prinsiplərinə hörmət - beynəlxalq sülhün və təhlükəsizliyin əsas elementi kimi" adlı açıq müzakirələrdə çıxışı zamanı bildirib.

Erməni diplomatın iddiasına görə, dövlətlərin suverenliyi və ərazi bütövlüyünün qorunması bəhanəsi ilə tez-tez xalqların öz müqəddəratını təyin etmə prinsipi təhrif edilir ki, bu da hüququn aliliyinin qulaqardı edilməsinə gətirir.

***

Təbii ki, köhnə bayatıdır. 200 min köklü azərbaycanlını Ermənistandan qovandan və monoetnik bir respublika yaradandan, Azərbaycan ərazilərinin 20%-ini işğal edib etnik təmizləmə aparandan sonra öz müqəddəratını təyinetmədən danışmağa nə var ki? Amma bir iş var ki, bu hüquqdan kimlər *(çeçenlər, tatarlar, başqırdlar və s.)* danışsa da, məhz ermənilərin danışmağa haqqı yoxdur. Çünki onlar çoxdan öz müqəddəratlarını təyin edərək, Ermənistan adlı marionet dövlət əldə ediblər - əfsuslar olsun ki, həm də tarixi türk (Azərbaycan) ərazilərində, rusların əli ilə. İndi də rusların, amerikanların və fransızların sayəsində və Minsk Qrupu hesabına ikincisinə qovuşmağa ümidlidirlər.

Amma zaman indi başqadır. Ermənistan adlı saxta dövlət yaradılan dönəmdən fərqli olaraq, indi pis-yaxşı BMT var, BMT-nin ölkələrin öz ərazi bütövlüyünü bərpa eləməsinə haqq tanıyan Nizamnaməsi, Təhlükəsizlik Şurası və onun Dağlıq Qarabağa dair qətnamələri var, başqa beynəlxalq təşkilatlar və onların analoji sənədləri də eləcə. Bu sənəd-qətnamələri görməmək olar, ancaq ciddiyə almamaq - mümkünsüzdür.

Azərbaycanın beynəlxalq hüquqdan qaynaqlanan ən böyük üstünlüyü də elə budur. Qalır ondan rasional istifadə. Əslinə qalsa, rəsmi Bakının yeni və ədalətli həll formatı axtarması da eyni hüquqdan mənbə götürür. Yaxşı ki, bunu nəhayət, həmsədrlər də anlamağa və etiraf eləməyə başlayıblar.

Məsələn, amerikalı həmsədr Ceyms Uorlik Azərbaycan tərəfinin AŞ PA-da Dağlıq Qarabağa dair qətnaməyə Minsk Qrupunun niyə əngəl yaratması ilə bağlı sorğusuna cavab olaraq bildirib ki, Bakı münaqişənin həllini başqa müstəvilərdə axtarmaq, başqa beynəlxalq institutlara müraciət eləmək hüququna malikdir.

Göründüyü kimi, cənab Uorlik Azərbaycanı narahat edən əsas suala cavab verməyib. Bu da Minsk Qrupunun gerçəkdən də ermənilərin əlinə işlədiyi haqda gənaəti daha da gücləndirir. İşğalçı erməni tərəfi ondan və Minsk Qrupundan niyə vaz keçsin ki?

# Azərbaycan müdafiə xərclərini artırır

**Azərbaycan 2016-cı ildə müdafiə xərclərini 391 milyon manat və ya 21,3% artırır. Bu, "Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsi haqqında" Qanunda dəyişikliklər layihəsində əksini tapıb (APA).**

Qanun layihəsində bu il üçün müdafiə xərcləri 2 milyard 229 milyon manat nəzərdə tutulub. Bu vəsaitin 2 milyard 114 milyon manatı müdafiə qüvvələri, 108 milyon 895 min manatı milli təhlükəsizlik, 2 milyon 422 min manatı müdafiə və təhlükəsizlik sahəsində tədqiqatlar, 3 milyon 022 min manatı isə digər kateqoriyalara aid edilməyən xərclərin payına düşür.

Qeyd edək ki, 2016-cı ilin təsdiqlənmiş büdcəsində cari il üçün müdafiə xərcləri 1 milyard 838 milyon manat səviyyəsində proqnozlaşdırılmışdı. Bu vəsaitin 1 milyard 723 milyon manatı müdafiə qüvvələri, 108 milyon 895 min manatı milli təhlükəsizlik, 2 milyon 422 min manatı müdafiə və təhlükəsizlik sahəsində tədqiqatlar, 3 milyon 022 min manatı isə digər kateqoriyalara aid edilməyən xərclərin payına düşür.

Müdafiə xərclərinin artmasının səbəbi müdafiə qüvvələrinə xərclənəcək vəsaitin 391 milyon manat artırılması ilə bağlıdır.



Xatırladaq ki, Azərbaycanın hərbi büdcəsi Ermənistanın ümumi büdcəsindən böyükdür, hərbi büdcələrin həcmi isə müqayisəyə belə gəlmir. Məsələn, 2015-ci ildə Azərbaycanın hərbi büdcəsi 1 milyard 738 milyon dollar olubsa, Ermənistanda bu rəqəm cəmi 414 milyon dollar təşkil edib.

Azərbaycan Respublikasının Prezidentİ yanında Kütləvİ İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# Banklar niyə dollar yığır- mart ayına hazırlıq?...



## Banklar Mərkəzi Bankdan aldıqları dollarları vətəndaşlara vermir, əhalinin dollar əmanətləri qaytarılmır, banklar dollardan qazanmaq üçün fürsət gözləyir...

**Mərkəzi Bank tez-tez banklara dollar satsa da, keçirilən hərraclarda az sayda bank iştirak edir və az miqdarda dollar alınır. Banklar isə vətəndaşlara çox hallarda dollar satmaqdan imtina edirlər. Həmçinin dollarla olan əmanətlərin, depozitlərin qaytarılmasında ciddi problemlər var. Üstəlik, banklar kredit verilməsini də dayandırıblar. Maraqlıdır, banklar Mərkəzi Bankın hərracları vasitəsilə aldıqları dolları hara xərcləyirlər? Bu vəsait üçüncü devalvasiya dönəmi üçün saxlanılıb?**

Qeyd edək ki, bankların dollar satmaqdan imtinası Mərkəzi Bankın normativ xarakterli aktlarına dəyişikliklərlə izah edilir. Bu ilin yanvarında Mərkəzi Bank tərəfindən "Mübadilə şöbələrinin təşkili və mübadilə əməliyyatlarının aparılması" qaydaları yeni redaksiyada qəbul edilib. Qaydaların tələblərinə görə, mübadilə şöbəsində bir müştəriyə 500 ABŞ dollarına ekvivalent məbləğdən artıq mübadilə əməliyyatı şəxsiyyəti təsdiq edən sənəd əsasında aparılmalıdır. Valyutadəyişmə məntəqələri ləğv edildiyindən, artıq banklar valyuta dəyişdirilməsini həyata keçirirlər və dollar satmırlar.

**Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a bildirib ki, banklar aldıqları pulları bir neçə məqsədlə istifadə edirlər:** "Birinci odur ki, bankların özlərinin xarici öhdəlikləri var. Xarici kredit təşkilatları qarşısında götürdükləri öhdəlikləri və borcları var. Ümumi bank sektorunun borcu yanvar ayının 1-nə 5,7 milyard dollar idi. Təəssüf ki, dəqiq bilinmir hansı bankın nə qədər borcu var. Ümumi borcun həcmini Mərkəzi Bank açıqlamışdı. Bankların bir qismi dolları xarici borcların ödənməsinə sərf edirlər. İkinci variantda ola bilər ki, hər hansı fors-major situasiyaya hazırlıq prosesi gedə bilər. Çünki Mərkəzi Bank son dövrlərdə manatın dövriyyəsini kəskin şəkildə azaltmaqla, monetar siyasəti sərtləşdirməklə müəyyən dərəcədə psixoloji bir əməliyyat da həyata keçirirdi. Gündəlik olaraq dolların məzənnəsini 1 qəpiyin onda, on beşdə biri qədər ucuzlaşdırırdı. Simvolik olaraq, manatı gücləndirərək ajiotaj yaradırdı ki, Azərbaycanda dollar ucuzlaşır. Ola bilər ki, bunlar mart ayındakı gözlənilən addımlara hazırlıqdır. Martda monetar siyasətin daha da yumşalmasını gözləmək mümkündür. Yeni büdcə yenidən dəyişikliklərlə təsdiq olunacaq. Büdcə parametrlərində ilkin görünən odur ki, iqtisadi aktivliyi canlandırmaq üçün xərcləmələrə gediləcək. Dövriyyədə manat artacaq. Dövriyyədə manat artdıqca manata olan basqılar da artacaq. Dollara tələbat artacaq. Ola bilər, banklar bu situasiyaya hazırlaşırlar ki, gələcəkdə manatın dövriyyəsi artdıqca dolların məzənnəsində müəyyən dəyişikliklər olacaq. Yuxarıya doğru avtomatik olaraq hərəkətlənmə olacaq. Artıq bu prosesə hazırlıq görürlər".

**Ekspertin sözlərinə görə, hazırda banklara 500 dollardan artıq valyuta satılmaması bir hədəf kimi qoyulub:** "Bundan artıq satış həyata keçirilmir. Çox vaxt dollar depozitlərinin geri qaytarılmasında problem var. Ya qaytarmırlar, ya gecikdirirlər, ya da gündəlik çox cüzi məbləğlərlə depozitlərini geri qaytarırlar. Banklarda dollarla bağlı problemlər var. Gələcəkdə əgər bu problemlərin aradan qaldırılması üçün daha yumşaq siyasətə keçiriləcəksə, dolların məzənnəsinin yüksəlməsi ehtimalı böyükdür".

**Ekspert Rəşad Həsənov isə musavat.com-a açıqlamasında qeyd edib ki, bankların vətəndaşlara dollar satmamasının səbəbi özlərində də kifayət qədər olmamasıdır:** "Düşünmürəm ki, banklar hazırda Mərkəzi Bankdan dollar aldıqdan sonra onu gələcək üçün yığım kimi saxlayırlar. Bu, bankların hazırkı imkanları xaricindədir. Belə ki, hazırda bankların xarici valyuta ilə yanaşı, eyni zamanda milli valyuta sıxıntısı da vardır. Dövriyyədə valyuta çatışmazlığı var. Mərkəzi Bank təxminən il yarım müddətində manatın kütləsini kifayət qədər azaldıb ki, bu da banklarda əlavə manat kütləsinin olmamasına gətirib çıxarıb. Hazırda bankların bu istiqamətdə imkanları məhduddur. Eyni zamanda Mərkəzi Bankın hərraclarında iştirakçının az olmasının səbəblərindən də biri məhz bu amildir. Bankların məhdud manat ehtiyatlarını daha çox müştərilər qarşısında öhdəlikləri yerinə yetirmək məqsədilə istifadə etməsi səbəbindən hazırda hərraclarda iştirak payı da azalıb. Bu gün banklar kifayət qədər ehtiyacı olduğu, tələbin olduğu qədər xarici valyuta ala bilmədiyi üçün, məhdud xarici valyutanın da müəyyən limitlər çərçivəsində satışını həyata keçirirlər. Yəni eyni zamanda burada zaman-zaman müxtəlif digər versiyalar da ortaya çıxır. Bəzi hallarda banklar sahibkarlıq subyektləri ilə razılaşırlar, yığdıqları xarici valyutanı və yaxud da milli valyutanı rəsmi müəyyən edilmiş məzənnədən yüksək gəlirlə onlara verirlər. Banklar zaman-zaman valyuta dəyişməsində qara bazarın iştirakçısına çevrilirlər. Həm də müəyyən qədər idxal azalıb. İdxalın azalması səbəbindən təbii ki, ölkədə valyuta tələbi də aşağı düşüb. Bu da Mərkəzi Bankın hərraclarda xarici valyuta satışının həcminin az olmasına öz köməkliyini göstərir".

**Qeyd edək ki, ikinci devalvasiyadan iki aya yaxın vaxt keçsə də, ölkədə hələ də dollar panikası var. Mərkəzi Bank hər gün dollar satışı həyata keçirsə də, ekspertlər bunun bazarın ehtiyacını ödəmək qabiliyyətində olmadığını vurğulayırlar.**

❑ **Röya RƏFİYEVA**

# "Nikoil Bank"dan dollarla krediti olanlara güzəşt




**"Nikoil Bank" "Etibarlı dost dar gündə tanınar" adlı aksiyaya start verib. Axar.az xəbər verir ki, bu barədə bankın rəsmi facebook səhifəsində məlumat paylaşılıb. Məlumata görə, bu ilin 31 mart tarixinədək müştərilərə hər bir təminatsız istehlak və biznes krediti üçün 1 USD=1.30 AZN məzənnəsi ilə kreditin tam qalığını ödəmək imkanı veriləcək:**

"Digər borcalanlar üçün fərqli güzəştli proqramlar tətbiq olunur. Kredit ödənişi zamanı əsas borcun silinməsi ilk növbədə aparılacaq. Bundan əlavə, müştərilərə valyuta kreditləri üzrə illik faiz dərəcəsinin azaldılması və ya kreditin müddətinin uzadılması imkanı verilir".

Qeyd edək ki, bu kampaniya istehlak və biznes kreditlərinə şamil olunur.

# "Çudo Peçka"da maaş davası

## Mağazalar şəbəkəsi Çingiz Cəlilova qaytarılandan sonra Heydər Babayev işçilərə əvvəlki ayların maaşını ödəmək istəmir




**Bu günlərdə "Çudo Peçka" mağazalar şəbəkəsi məhkəmə qərarı ilə şirkətin qurucusu, iş adamı Çingiz Cəlilova qaytarılıb. Öncə qeyd edək ki, "Çudo Peçka" mağazalar şəbəkəsi 2000-ci ildə Çingiz Cəlilov tərəfindən yaradılıb. Ç.Cəlilov şəbəkəni qurmaq üçün "Bank Standart"dan götürdüyü 2.5 milyon dollar krediti qaytara bilmədiyinə görə kafe-mağazalarda tez-tez yoxlamalar aparılıb, cərimələr tətbiq edilib.**

Yekun olaraq Ç.Cəlilov kredit borcunu qaytara bilməyib və MMC-yə daxil olan şəbəkələr "Bank Standart"ın girovluğunda qalıb. Bankın səhmlərinin böyük bir hissəsinin isə sabiq iqtisadi inkişaf naziri Heydər Babayevin olduğu bildirilir. Nəticə olaraq, "Çudo Peçka" da son illərdə Heydər Babayevin biznes şəbəkəsinə aid edilirdi.

Manatın ikinci devalvasiyasından sonra ölkədə yaranan iqtisadi vəziyyət "Çudo Peçka" mağazalar şəbəkəsinə də təsirsiz ötüşməmişdi. Belə ki, ötən aylarda ard-arda olaraq şəbəkənin metronun "Nəriman Nərimanov" və "Elmlər Akademiyası" yaxınlığında yeni açılan mağazaları bağlanmışdı. Digər mağazalarda isə işçilərin sayında ixtisarlar edilmişdi.

"Çudo Peçka"nın köhnə sahibinə qaytarılmasından sonra oradakı mövcud vəziyyəti öyrənmək üçün şəbəkənin paytaxt ərazisində olan kafe-mağazalarında olduq.

Kafe-mağazaların əməkdaşlarından biri "Yeni Müsavat"a söylədi ki, onlar Çingiz Cəlilovun yenidən şəbəkənin rəhbəri vəzifəsinə qayıtmasına çox sevinirlər. Çünki son günlər kafe-mağazalarda vəziyyət ürəkaçan deyilmiş: "İşçilərin ixtisarından sonra bir adam iki-üç nəfərin yerinə işlədilir. Günün 8 saat yarımını işləyirik. Ancaq maaşımız çox azdır. Az olmağı bir yana, heç vaxtında da verilmir. Hazırda işçilərin qalıq maaşını kimin verəcəyi köhnə və yeni rəhbərlik arasında müzakirə mövzusudur. Yeni rəhbərlik bildirir ki, işçilərin bu vaxta qədər verilməyən maaşını köhnə rəhbərlik ödəməlidir. Onlar isə ödəmirlər. Hələ ki vəziyyət belədir. Yaxşıya doğru yeniliklərin olacağına ümid edirik. Ancaq qısa zaman keçdiyi üçün hələ ki hansısa dəyişiklik olmayıb".


Heydər Babayev

**Müsahibimiz Çingiz Cəlilovun zamanında onlara xeyli güzəştlərin edildiyini də bildirdi:** "Həmin zamanlarda demək olar ki, hər bayram bizə əlavə pul verilirdi. Puldan başqa, rəhbərlik tərəfindən müxtəlif hədiyyələr də alırdıq. İşləmək üçün stimul yaradılırdı. Eyni zamanda o zamanlar "Çudo Peçka"ya maraq göstərənlərin də sayı çox idi. Müştəri sarıdan korluq çəkmirdik. Həm də o zamanlar müxtəlif endirim kampaniyaları, aksiyalar və digər bu kimi tədbirləri tez-tez keçirirdik. Son zamanlar isə bunlar olmurdu. Ümid edirik ki, işlər yenidən əvvəlki vəziyyətinə qayıdacaq".

Qeyd edək ki, hazırda bu şəbəkənin "İnşaatçılar", "İçərişəhər", "Sahil", "28 May", "Nəriman Nərimanov", "Qara Qarayev", "Əhmədli" və "Neftçilər" metro stansiyalarının çıxışlarında da kafe-mağazaları var.

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 39 (6360) 19 fevral 2016



# O nədir ki, Tiflisdə 40, Bakıda 351 avrodur?

## İqtisadçı ekspert: "AZAL-ın inhisarçı mövqeyinə son qoymaq lazımdır"

**Gürcüstanın yeni baş naziri Georgi Kvirikaşvili öz facebook səhifəsində Kutaisidən Avropanın müxtəlif şəhərlərinə yeni uçuş qiymətlərini paylaşıb. "WizzAir" şirkətinin həyata keçirdiyi uçuşların qiyməti hər kəsi şoka salıb. Belə ki, yeni uçuş qiymətləri Kutaisidən Milana, Berlinə, Münhenə, Dortmunda 40 avro, Saloniki və Sofiaya 30 avro, Larnaka isə 25 avrodur.**

Xatırladaq ki, Bakıdan Milana biletlərin qiyməti 337 manatdan başlayır. Ekonom standartın tək gediş qiyməti isə 526 manat, yəni 337 avrodur. Bakıdan Berlinə isə uçuşun qiyməti 599 manatdır. (351 avro) Bakıdan adıçəkilən ölkələrə uçmaq Gürcüstandan 10 dəfə bahadır.

2015-ci ildə "Post Office" Britaniya poçt xidməti bir sıra Avropa ölkələrində dincəlməyin maddi tərəfini araşdırmışdı. O zaman da çox böyük fərqin şahidi olmuşduq. Araşdırma nəticəsində məlum olub ki, Vilnüsdə istirahət günlərini orta hesabla 100 avroya keçirmək olar. İkinci yerdə 119,77 avro ilə Budapeşt, üçüncüdə 120,39 avro ilə Riqa şəhəri qərarlaşıb. Stokholm Avropanın ən bahalı şəhəri seçilib, istirahət günləri İsveç paytaxtına səyahətə orta hesabla 310 avro tələb olunur. Reytinq tərtib olunarkən iki gecə üç ulduzlu oteldə gecələmək, hava limanında gediş-gəliş xərcləri, çaxırla şam yeməyi, ekskursiyalar və şəhər nəqliyyatında xərclər nəzərə alınıb. Azərbaycanda isə ümumiyyətlə bu qiymətlərə heç bilet almaq mümkün deyil. Bunun səbəbi isə təbii ki, AZAL-ın sərnişin daşımada inhisarçı siyasət yeridərək heç bir özəl şirkətə bazara çıxmağa imkan verməməsidir.

**Bundan əlavə vəkil Cavad Cavadov öz facebook hesabında AZAL-ın baqaj limitini ləğv etdiyini qeyd edib:** "AZAL reyslərdə baqaj limitini ləğv edib *(yeni baqaja verilən yükü)* və hər kiloqramına pul alır. Yəni misal üçün, 20 kiloluq baqaja veriləsi yükünüz varsa, onun pulunu hər kiloqramına görə ödəməlisiniz. Bir də yeməyə beş avro pul alırlar. Yəni bunlar artıq biletə daxil deyil. Söhbət ekonom klassdan gedir.

Bakıdan uçuş qiymətlərinin baha olması ilə bağlı AZAL-ın mətbuat xidmətinin rəhbəri Paşa Kəsəmənski ilə əlaqə saxladıq. P.Kəsəmənski bizə qiymətlərlə bağlı məlumatları AZAL-ın saytından ala biləcəyimizi bildirdi. AZAL-ın saytındakı məlumatlar isə yenilənməmişdi. Saytdakı məlumatı olduğu kimi veririk: Ekonom sinif biletlərinə 23 kiloqrama qədər çəkidə 1 yer baqaj və 8 kiloqrama qədər çəkidə 1 yer əl yükü daxildir, əlavə baqajın daşınması üçün ödəniş həyata keçirilməlidir. Ancaq görünür ki, bu məlumat köhnədir...



**Gürcüstanın baş nazirinin Kutaisidən Avropanın müxtəlif şəhərlərinə açıqladığı yeni uçuş qiymətləri məsələsinə gəlincə isə iqtisadçı ekspert Natiq Cəfərli bu cür tariflərin bizdə mümkün olmayacağını bildirdi. Buna səbəb isə AZAL-ın inhisarçılığıdır:** "Gürcüstanda aviasərnişin daşımaları ilə dövlət məşğul olmur. Oradakı bir sıra şirkətlər məşğul olur. Şirkətlər üçün də rəqabətli mühit üçün çox gözəl şərait yaradılıb. Rəqabətli mühitdə Gürcüstan ərazisində 10-dan çox şirkət birbaşa daxil olub aviadaşımaları həyata keçirir. O cümlədən Azərbaycan vətəndaşlarına da tanış olan "WizzAir" kimi şirkət Azərbaycanda da bir ara çalışdı, Macarıstana uçuşlar təşkil elədi. Amma AZAL-ın apardığı inhisarçı siyasət nəticəsində bazardan çıxıb getməyə məcbur oldu. Burada hökumətin görəcəyi iş şirkətlər üçün normal şəraitin yaradılmasıdır. Baş nazirin də mesajı ona hesablanıb ki, Gürcüstan hökuməti şirkət üçün normal şərait, rəqabətli mühit yaratmaqda maraqlıdır, təki şirkətlər daha ucuz və keyfiyyətli iş görməyə çalışsınlar. Gürcüstanın burada artıq böyük bir uğuru var. Azərbaycanda isə AZAL, bildiyiniz kimi, yeganə - inhisarçı şirkətdir. AZAL aviayükdaşımalarda da inhisarçılıq mövqeyindədir"

**İqtisadçı ekspert bildirdi ki, xarici şirkətlərin Azərbaycan bazarına çıxışına şərait yaradılmalıdır:** "98 faizə yaxın aviadaşımalar AZAL-ın nəzarəti altındadır. Digər şirkətlər, hətta Türk Hava Yolları da Azərbaycanın oyun qaydalarına əsasən burada işləyir. Onlar AZAL-ın oyun qaydalarına əməl etməyə məcburdurlar. Bundan başqa, AZAL həm də hava limanında şirkətlərə xidmət məsələsini də öz üzərinə götürüb. Bu da çox vacib məsələdir. Çünki bir çox ölkələrlə müqayisə etdikdə Azərbaycanda hava limanında digər şirkətlərə xidmət haqları çox bahadır. Bu da qiymətlərə təbii ki, təsir göstərir. Ona görə də Azərbaycanda belə bir şəraitin yaranmasının yeganə yolu bir çox xarici şirkətlərin birbaşa Azərbaycan bazarına çıxmasına şərait yaratmaqdır. AZAL-ın inhisarçı mövqeyinə son qoymaq lazımdır. Hava alanının işlətməsini AZAL-dan almalı, təsirindən çıxarmalı və digər özəl şirkətlər tərəfindən həyata keçirilməsinə şərait yaradılmalıdır. Yol budur. Hökumət əgər normal addım atmaq istəyirsə, bunu etməlidir. Xarici şirkətlərin ölkədə normal fəaliyyət göstərməsinə şərait yaratmalıdır. Amma görünən budur ki, Azərbaycan hökuməti AZAL-ın inhisarçı mövqeyini müdafiə etməkdə maraqlıdır. Yəni AZAL-ın inhisarçı mövqedə qalmasında maraqlıdır ki, AZAL da istədiyi qiyməti diqtə edir və istədiyi kimi qiymət siyasəti aparır".

❑ **Günel MANAFLI**

# Aeroportda Türkiyə vətəndaşında 12000 dollar aşkarlandı

**İstanbula uçmaq istəyən Türkiyə vətəndaşının üzərindən külli miqdarda dollar aşkarlanıb.**



Gömrük Komitəsinin mətbuat xidmətindən lent.az-a verilən məlumata görə, Bakı-İstanbul aviareysilə getmək üçün Heydər Əliyev Beynəlxalq Hava Limanına gələn Türkiyə vətəndaşı Taşkın Murat Mehmet Kamil gömrük nəzarətindən keçən zaman bəyannamə təqdim etməyib. Şübhə doğuran M.Taşkının üzərində şəxsi yoxlama aparılıb. Nəticədə onun şalvarının ciblərindən gömrük nəzarətinə əvvəlcədən təqdim edilməmiş, elektron və ya kağız üzərində yazılı formada bəyan olunmamış 12000 ABŞ dolları aşkar edilib. Faktla bağlı araşdırma aparılır.

# Çəkicli xuliqanın hikkəsi



Samir SARI

**Məqsədyönlü yerişinə, ustaca çəkic işlətməsinə, maşının ətrafına becid-becid dolanmasına baxırsan, hiss edirsən ki, adam nə nəşəlidir, nə də içkili. İçibsə də az içib, təxminən 100-150 qram. Yoxsa biz içkili adam görməmişikmi? Əsl içkili adam üç metr yolda mütləq 8 yazmalıdır, yazmırsa, deməli, o qədər də içməyib. Bu gənc isə əzdiyi maşının başına fırfıra kimi fırlanır, atılıb üstünə çıxır.**

Yaxşı, bəs adam içkili, nəşəli deyilsə, görəsən, heç bir günahı, qəbahəti olmayan maşının başına niyə o oyunu açır, şüşəsini sındırır, tormoz işıqlarını qırır, kapotunu əzir, yan güzgülərini cilik-cilik edir və sair.

Özü də deyilənə görə, Bəylərov soyadlı o gənc sürücü deyil, adi, çiyni çantalı bir piyadadır. Piyadadırsa, demək, yol polisi ona "maşını sağa çək, saxla", "bir bu alkometrə üfür, görüm", "cərimə meydançasına getməliyik" kimi canincidən, adamı əsəbiləşdirən sözlər deməyib.

Lap adam sürücü olsaydı da, yol polisi ona yuxarıda sitat gətirdiyimiz beyinqazan əmrləri versəydi də, prinsipcə, Bəylərov çəkicə əl atmamalıydı. Ona qalsa, hər gün yollarda yüzlərlə adam bu cür əmrlər eşidir, amma heç biri maşının baqajına cumub çəkic götürmür.

Hərçənd bəzən elə hirsli sürücülər olur ki, benzin butulkasına əl uzadaraq, "həzrət Abbas haqqı, bu saat bunu yandıracam, sizin də canınız qurtarsın, özümün də" deyə təhdid edirlər. Ancaq belə hirs-hikkəli adamlar adətən öz şəxsi mülkiyyətinə ziyan vurmaqla hədələyirlər. Ta heç kim polisin üstünə cumub başını bəlaya soxmur, türkün sözü.

Bu, hər nədirsə, təzə xanədəndir, indiyəcən görülməmiş işdir. Nə bu cür iş görən olub, nə də bu cür mənzərəni görən.

Hamı bilir ki, yolda-rizdə yetimin birinin maşınını əzməklə polisin maşınını əzməyin nəticəsi eyni olmur. Adam var ki, üç il əvvəl əzdiyi maşının cərimələrini hələ verməyib, vermir, hələ "yaxşı eləmişəm, vermirəm, heç verməyəcəm də, get əlindən gələni beş qaba çək" də deyir. Amma eyni şeyi çiynində poqon daşıyan adama eləmək olmaz. Xüsusilə də poqon yiyəsinin sərəncamındakı dövlət mülkiyyətinə qarşı elə hərəkət etmək heç mümkün deyil. Dəymiş ziyanı ödətdirərlər. Çığırda-çığırda alarlar. Ev satdırarlar, sələmə borc götürtdürərlər, nəsli yığıb tasa para düşürtdürərlər, axır ki, ziyan ödənər. Bu, yüzdəyüzdür.

Ziyankar xuliqanın cəzalandırılması proseduru isə bir ayrı qaravəllidir. Adamın danaboyun və itqusdu edilməsi heç, bu startda olur və sırf zövqə bağlı məsələdir. Ancaq onun ardınca müstəntiq, prokurorluq, məhkəmə, penitensiar xidmət mərhələləri gəlir. Lap axırda iş yenə gəlib çəkicə çıxır, xuliqanın əlinə çəkic verir, cəzaçəkmə müəssisənin uçuq-sökük yerlərini mismarladırlar.

Bu baxımdan adam gərək əsəblərini cilovlamağı bacarsın. Atalar da deyib ki, "hirsli başda ağıl olmaz", "hirsin dövlətə (yəni adamın öz mülkünə) ziyanı var", "sirkə tünd olsa, öz qabını çatladar" və sair və ilaxır.

Ancaq sosial şəbəkələrə baxıram ki, yol polisinin "Be-eM-Ve"sini pis günə qoyan gəncə haqq qazandıranlar var. Bəziləri yazır ki, görün, yazığı nə günə qoyubmuşlar ki, o, belə bir hərəkət eləyib. Yəni guya ki, Bəylərova qarşı haqsızlıq olubmuş.

Bəlkə də ona qarşı nəsə olubmuş. Hələlik bilinmir. Amma nəsə bir haqsızlıq olubsa da, adam gərək bu qədər cinlənib aqressiv olmasın, aqressiv olsa da, başını dirəyə-filana vursun, amma bu cür hərəkətlər edib özünü cəncələ salmasın.

Xuliqana haqq qazandıranlar da bilsinlər ki, o şəxs hələ çiynində poqon, belində silah daşıyan polisə qarşı bu qədər aqressivdirsə, bir belə hirs-hikkəlidirsə, görün, onunla söz güləşdirən sıravi adamların başına nə oyun açardı. Heç nə yox, hərənin başına bircə çəkic vursa, təcili tibbi yardım maşınları dal-dala düzülər.

Yenə o gözəgörünməzə şükür edək ki, belə adam bizə rast olmur. Yoxsa vallahi, biabır olarıq.

YENİ MÜSAVAT
N 39 (6360) 19 fevral 2016




**Cümə söhbətləri**

# İnsanın ehtiyacsızlıq paradiqması

**Bismilləhir-Rahmənir-Rahim!**
**İnsan dünyaya gələn andan ehtiyacları açıq-aşkar görsənir. Dünyaya göz açandan qida ehtiyacı, nəvaziş ehtiyacı var, hər mənada ehtiyacın içərisindədir. Allah Təala da dünyaya gələn andan, hətta ana bətnində də insana Öz lütflərini əsirgəmir, mərhəmətini göstərir. Uşaq böyüdükcə bu ehtiyaclar azalmır ki, çoxalır. Yaş artdıqda, davamlı olaraq ehtiyacları da artır. İnsan başdan-ayağa asılı, ehtiyaclı vəziyyətdədir. Havadan, sudan, qidadan, istidən, soyuqdan - hər məsələdən asılıdır.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## Ən ehtiyacsız insan - Allaha bağlantısı olan insandır

Həzrət İmam Hüseyndən (ə) nəql olunan "Ərəfə" duasında bir önəmli məqam keçir. Duada buyurulur: **"Allahım, mən özümü necə ehtiyaclı bilməyim, bir halda ki, məni fəqir və ehtiyaclılarla birgə, bu zümrədə xəlq etmisən. Allahım, mən özümü necə ehtiyaclı bilim ki, bir halda ki, Sən mənim ehtiyacımı ödəmisən, məni ğəni etmisən".** Diqqət etsək, tam ehtiyacın içərisində yaranmış bir varlıq başdan-ayağa Allahın mərhəmətininin içərisindədir, bir çox lütfləri Rəbbimiz bizdən, bizim iradəmizdən heç asılı olmayaraq bizlərə inayət edir, biz çox məsələlər bizim özümüzün səyimizin, çalışmamımızın nəticəsi deyil. Allah elə qərar verib ki, bütün varlıqlar bu lütf və inayətlərindən bəhrə aparırlar. Bəzən insanla bağlı, iradəvi varlıqlarla bağlı bəhrələnmə imkanları qoyub ki, bunlar bizim öz iradəmizə bağlıdır. İnsanı başqa varlıqlardan fərqləndirən cəhətlərdən biri də budur ki, biz Allaha bəndə olsaq, Allahla bağlantımız olsa, Allaha aid olsaq - o halda ehtiyaclarımız sıradan çıxar. Allaha bağlantımız olsa, ən ehtiyacsız varlığa çevrilərik.

## Allahı olan insanın nəyi yoxdur?

Duanın başqa bir hissəsində buyurulur: **"Bir insan ki, onun üçün Sən yoxsan, heç nəyə malik deyil. Bir insan ki, Sən onda varsan, o insanın hər şeyi var".** İnsan əgər varlıq olaraq iradəsi, şüuru, dərki ilə gəlib bioloji varlıqlardan fərqli olaraq Allah bəndəsi olsa, ən ehtiyacsız varlığa çevrilər. Əgər bunu bacarsa, bütün məsələləri düzəlir. Günümüzdə buna nail olmaq çox çətindir. Biz diqqət etsək, mövcud olduğumuz zamanda çox müşkül məsələdir. Dünyanın özünün rəngarəngliyi günü-gündən artır. Dünya fürsətləri artıb. Dünyada olan məsələlər müqayisə olunmayacaq qədər əlçatan olub. Digər tərəfdən də, insanın demək olar ki, uşaqlıqdan başlayaraq təlim-tərbiyəsində ona aqibəti və axirəti xatırladacaq bir şey qalmayıb. Əgər qədim dönəmlərin təlim-tərbiyəsi ilə indiki dönəmin təlim-tərbiyəsinə müqayisəvi nəzər salsaq, ciddi fərqlərindən biri budur ki, insanın bir varlıq kimi tərbiyə olunmasında, təlimində həm də əsas hədəflərdən biri kimi bu qoyulurdu ki, bu uşaq yaxşı Allah bəndəsi olsun. Əslində o zamanlarda təlim-tərbiyənin hədəflərindən biri də həm də bu idi. İndi isə, bu amil nəinki təlim-tərbiyənin hədəflərindən biri deyil, ümumiyyətlə belə bir bənd yoxdur. Nə bağçasında, nə məktəbində, nə universitetində insana ölümü xatırladan, Qiyaməti xatırladan, Allah bəndəsi olmağın zərurətini xatırladan heç nə yoxdur. Yəni, insan dindar ailədə göz açsa və bu informasiyaları alsa, ailəsinin iştirakı ilə bu məsələlərdən nisbətən xəbərdar olsa - bunları biləcək. Əks halda, bütün bu məlumatlardan məhrum bir durumda olacaq.

Biz televizordan, radiondan gələn bütün informasiyaları götürsək, mahiyyətcə təlim-tərbiyə baxımından Allah bəndəsi yetişdirməni hədəfləyən heç bir mövzusunun olmadığını görərik. İndi görün fitri olaraq Allaha tərəf yönəliş, Allaha tərəf hərəkət, bəndə olmaq istəyi insanın daxilində nə qədər ciddidir ki, heç bir xüsusi xatırlama, bununla bağlı xüsusi səy və təkid olmadan insanlar - yeniyetmələr, cavanlar, yaşlılar - müxtəlif qəbil insanlar din axtarışında olurlar. Bu, özü də onu göstərir ki, daxilimizdə çox ciddi olaraq belə bir tələbat var və bunu qarşılayacaq, bunu xüsusi ödəyəcək məsələlər nə qədər zəif olsa da, bu, o qədər güclüdür ki, özü hərəkətə gəlir və özünü göstərir. Biz bunun fərqində olmalıyıq ki, yaşadığımız dövr, dönəm çox məsuliyyətli bir dövr və dönəmdir. Məşğuliyyətlər o qədər rəngarəngdir ki, o qədər çoxdur ki, insan özünü düşünsə, özü haqqında düşüncələri olsa - özünü səadətə çatdıra bilər. Əks halda, heç bir məsələyə fürsət tapa bilməyəcək. Əgər insan özü iradəvi olaraq zamanını tənzimləsə, özü ilə məşğul olsa, nələrəsə çata bilər.

## Dünyanın cəzzabiyyəti bizləri aldatmasın

Dünyanın özünün xüsusiyyətləti elə bunlardan ibarətdir. Həzrət Əmirəlmöminin (ə) dünya ilə bağlı buyurur: **"Dünyanın rəngarəng cazibələri sizi aldatmasın. Çünki onlardan yalnız az bir miqdarını özünüzlə aparacaqsınız".** Biz sona, yekuna baxsaq, hər bir şey gəlib yerinə düşər. Bizim ən böyük müşkülümüz ondadır ki, axıra baxaraq qərar vermirik. Əvvəla, ölüm belədir ki, hər zaman, hər vaxt insanı haqlaya bilər. Ölüm haqlayanda da insanın özü ilə bu dünyadan apara biləcəyi bir şey demək olar ki, yoxdur. Həzrət Əli (ə) bizə öyrədir ki, dünyanın rəngarəng cazibələri bizləri gərək aldatmamalıdır. Dünyanın ən ciddi xüsusiyyətlərindən biri məhz rəngarəngliyidir. İyirmi birinci əsrdə bu rəngarənglik bir qədər də şiddətlənib, bir qədər də əlçatanlaşıb. Misal üçün, əvvəl bir fəsad iş görmək üçün gərək insan çox çalışaydı. Sonrakı dönəmlərdə televizor bunu bir qədər əlçatan etdi. Lap son illərdə internet bunu insanların evinin içinə, ovcunun içinə gətirdi. Bir insan dünyada yaşaya və o fəsaddan, əxlaqsızlıqdan, tərbiyəsizlikdən xəbərsiz ola - demək olar ki, mümkünsüzdür. Əvvəl bəlkə də bu barədə eşidirdi. Sonra bu, televizorlarla evlərə girdi. Məhdudlaşdırmaq da mümkün deyil. Əgər müasir bir telefon bir uşağın, bir yeniyetmənin ixtiyarında varsa, əgər mənəvi tutumu, hazırlığı olmasa - bütün fəsad məsələlərindən agah ola bilər. Bu qədər çətinləşib durum. Bir tərəfi də çətinləşib ki, adi halda, küçədə, bayırda insanı çoxları görür, insan özünü yığışdırır. Amma virtual dünyada olan vaxtı onu heç kim görmür. Bu da fəsadın rahatlığını və əlçatanlığını bir qədər də artırır. Dünyanın rəngarəng cazibələri insanı aldadır. Biz dünyamızı dəyişəndə bunların heç birini apara bilməyəcəyik.

## Dünya çox hiyləgər və aldadıcıdır

Həzrət Əli (ə) başqa bir yerdə buyurur: **"Dünya çox hiyləgərdir və onda hər nə varsa - aldadıcıdır, məhv olmağa məhkumdur və onda yaşayan hər bir şey fani olar. Təqvadan başqa onun heç bir azuqəsində xeyir və yaxşılıq yoxdur".** Diqqət etsək, yenə də dünyanın xüsusiyyətləri sadalanır. Dünya çox hiyləgərdir. Dünya insanı özünə tam olaraq məşğul etməyənə qədər insandan əl çəkmir. Növbənöv məsələləri, rəngləri, cazibələri ilə gəlib insanı məşğul etmək istəyir. Bayırda məşğul edə bilmirsə, çalışır evdə məşğul etsin. Evdə məşğul edə bilmirsə, içində məşğul etmək istəyir, beynində məşğul etmək istəyir. Övladı ilə, valideyini ilə məşğul etdirmək istəyir. Onlarla bacarmır, hansısa arzuları ilə məşğul etdirmək istəyir.

Nəhayətdə dünyanın işi çox dəqiqdir. Bütün səy və çalışma budur ki, nəhayətdə insanı özünə cəzb etsin. Növbənöv hiylələr, vasitələrlə, ağla gələn və gəlməyən məsələlərlə insanı özünə cəzb edir. Birinə deyər ki, sən çox xüsusisən, birinə deyər sən çox kiçik adamsan, birini inandırar ki, o, mənəvi adamdır, birinə deyər ki, nə etsə də xeyri yoxdur - ən alçaq adamdır və s.

İnsanlar müxtəlif məsələlərlə məşğul olar. Əgər insan bunların fərqində olsa, ağlı başında olsa, özünü nəzarətdə saxlasa, özünü tanısa, dünya öz hədəfinə çatmaz. Əgər insan özünü tanısa, bütün məsələlər düzələr.

Dünya çox hiyləgərdir və onda hər nə varsa - aldadıcıdır. Baxırsan ki, fərqli görsənir, diqqət edəndə görürsən ki, içi başqa cürdür. Dünyanın xüsusiyyətlərindən biri budur ki, aldadıcıdır. Üstü bər-bəzəkli, bütün məsələləri qaydasında, amma balaca silkələyirsən, görürsən ki, vəziyyət qaydasında deyil. Biz yeməyimizə necə diqqət edirik? Xüsusilə müsəlman olmayan ölkələrdə yediyimizin halal-haramlığına xüsusi diqqət edirik, bər-bəzəyinə, cəzzabiyyətinə önəm vermirik. Biz dünyaya da bu cür baxmalıyıq. Görsəntisi, zahiri, cəzzabiyyəti bizi çaşdırmamalı və aldatmamalıdır.

## Dünyada olan hər bir şey fani və məhvə məhkumdur

Dünyada olan hər bir şey məhv olmağa məhkumdur. Bu dünya nə olsa, nəhayətdə məhv olacaq. Ən sevimli saatımızı bu dünyada qoyub gedəcəyik, ən sevimli maşınımızı bu dünyada qoyub gedəcəyik, ən sevimli evimizi bu dünyada qoyub gedəcəyik. Bu dünyada nələri sevmişiksə, bu dünyada qoyub gedəcəyik. Bir şeylər ki, onlara görə bütün həyatımızı sərf etmişik - ad, məqam, vəzifə, pul, mal, mülk - hamısı burada qalacaq.

Bu dünyada hər bir şey fanidir. Bu dünyada yaşayarkən həyatımızda nə ki, bu dünya ilə bağlanıb - o, aradan gedəcək, məhv olacaq, sıradan çıxacaq. Əgər maddi imkanlarımız bu dünya ilə bağlı olubsa, məhv olacaq. Əgər maddi imkanımızdan Allaha bəndəçilik üçün istifadə etmişiksə, aqibətimizə təsiri olacaq. Cüzi də olsa təsiri olacaq, çox da olsa. Əgər övladımıza məhəbbət Allahla bağlı olubsa - qalacaq, əgər dünya ilə bağlı olubsa - aradan gedəcək. Bu dünyada malik olduğumuz hər bir şey belədir.

## Nə edək ki, bu dünyadan öz aqibətimiz üçün pay apara bilək?

Həzrət Əli (ə) bu dünyada malik olduqlarımızın fani olmamasının da yolunu göstərir. Buyurur ki, təqvadan başqa bu dünyanın heç bir azuqəsində xeyir yoxdur. Təqva nədir? Təqva budur ki, bu dünyada olan hər bir şeydən Allaha görə istifadə edəsən. Əvvəla insan özünü Allaha görə istifadə etməlidir. Daha sonra ona verilən bütün nemətləri, qazandığı bütün məsələləri gərək Allaha görə istifadə etsin.

Əgər insan bütün malik olduğu məsələləri Allah üçün istifadə edirsə, bu, təqva olur. Vaxtımızı Allaha görə istifadə etsək, bu zaman yaşayışımızı təqvalı yaşamış oluruq. Təqva odur ki, insan Allahın rənginə özünü boyasın. O şeyləri etsin ki, onlardan Allah razıdır, o məsələləri etməsin ki, Allah onlardan razı deyil. Təqva budur ki, insan gün ərzində özünə məxsus olsun, Allaha bəndə olmaq üçün çalışsın. Təqva budur ki, insan robot olmasın, zombiləşməsin, həyatı, məşğuliyyətləri elə olmasın ki, Allahla bağlantısı aradan getsin. Əgər Allahla bağlantı olacaqsa, bu, təqva halıdır. Bu halda bu dünyada olan azuqələr xeyirli olur. Bundan başqa dünyada xeyir və yaxşılıq adında məsələ yoxdur.

## Dünya işləri üçün dini işlərini tərk edənin aqibəti

Həzrət Əmirəlmöminin (ə) buyurur: **"Əgər insan öz dünyəvi xeyirləri üçün dini işlərindən birini tərk edərsə, Allah Təala ziyanı həmin xeyirdən çox olan bir işi onların qarşısına çıxarar".** Təəssüflər olsun ki, insanlar çox zamanlar adi hal kimi dini işlərini dünyəvi xeyirləri üçün tərk edir. İslamla bağlı, dinimizlə bağlı, aqibətimizlə bağlı işləri tərk edirik ki, dünyəvi işlərimizi görə bilək. Həzrət Əli (ə) xəbərdarlıq edir ki, belə edəndə Allah Təala ziyanı həmin xeyirdən daha çox olan bir işi insanların qarşısına çıxardar. İnsan dini, aqibət işlərini tərk etmişdi ki, dünyəvi xeyirlərə çatsın. Nəinki xeyirə çatmayacaq, hətta zərəri ondan daha böyük bir işlə qarşılaşacaq. İnsanların ya Allaha etiqadları yoxdur, ya da qəflətdədirlər. Əgər Allaha etiqadı olsa və qəflətdə olmasa, çox dəyişər. Başa düşər ki, hansı vəziyyətdədir.

**Əgər Allaha etiqadımız varsa, amma əməl etmiriksə - deməli, qəflətdəyik. Deməli, qəflətdə olmamağın yolu budur ki, insan Allahı daim xatırlasın. Bunun da yolu möminlərlə ünsiyyətdən, daha çox moizə eşitməkdən, dualara, Allahla münacatlara daha çox diqqət ayırmaqdan keçir.**

**Allahım, bizlərə dünyanı tanımağı, onun rəngarəng cəzzabiyyətinə aldanmamağı nəsib et!**

**Allahım, bizləri qəflətdə olmağa qoyma!**

**Allahım, bizlərə axirət azuqəsi - təqvanı toplamağı nəsib et! Amin!**

## TƏBRİK



*Elyar balamızı doğum günü münasibətilə atası Əlyar, anası Almaz, nənələri Bəsdi və Esmira təbrik edirlər. Ona uzun ömür, cansağlığı, sevgi dolu ömür arzulayırlar. Tanrı səni qorusun. Səni sevənlər adından xalan Tərifə.*



# DYP niyə qadın yol polisinin olmamasının səbəbini izah etdi

## Kamran Əliyev: "Bayır xidməti nisbətən çətin, ağır olduğundan biz xanım polislərin yolda dayanmalarını rəva bilmirik"

**Azərbaycanda qadın sürücülərin sayı artmaqdadır. Hətta bir çox xanımlarımız çörək pulu qazanmaq üçün taksi sürücüsü, benzindoldurma məntəqəsində və başqa yerlərdə çalışır. Xanımlarımızı hər bir peşədə görsək də, polis xidmətində çox az sayda fəaliyyət göstərirlər. Məsələn, yol polisləri içərisində xanım polislərə rast gəlmək qeyri-mümkündür. Ancaq digər ölkələrdə polis peşəsinə həm kişi, həm də qadın peşəsi kimi normal baxırlar.**

Məsələn, qonşu Türkiyədə qadınlardan ibarət xüsusi çevik polis dəstələri var. Onlar qadın cinayətkarların yaxalanması, onlarla mübarizə, saxlanılan zaman üstlərinin yoxlanılmasında iştirak edirlər. Həmçinin kütləvi aksiyalarda və digər tədbirlərdə qadın iştirakçıların saxlanılmasında və yoxlanılmasında qadın polislər bilavasitə iştirak edirlər. Türkiyənin 54-cü hökumətində daxili işlər naziri xanım olub. Akşener Meral 1996-cı ildən 1997-ci ilədək daxili işlər orqanlarına rəhbərlik edib. Birləşmiş Ərəb Əmirliklərində isə ilk qadın polislər 2007-ci ildən etibarən hazırlanıb. 2007-ci ildə ilk dəfə Hindistanda 125 nəfərlik qadın polisdən ibarət tabor yaradılıb. Avropa ölkələrində qadın polis qüvvələrinin potensialından daha çox istifadə edilir. Almaniyada 20 min qadın polis sıralarındadır. Bu, alman hüquq mühafizəçilərinin 10 faizini təşkil edir. Rusiyanın hüquq-mühafizə orqanlarında da çox sayda qadın polis işləyir. Ən məşhur polis qadını isə 2002-ci ilin "Dünya gözəli" Oksana Fyodorovadır.




Xanım polislərin xarici görkəmləri ilə bağlı müxtəlif ölkələrdə fərqli qərarlar var. Məsələn, Honkonqda qadın polislərə saçlarını rəngləmək qadağandır. Qadın polis əməkdaşları növbətçi qalan zaman zinət əşyaları taxmamalıdır. Bu da onunla izah olunur ki, polis qadın görkəmi ilə vətəndaşlara sakitlik, cinayətkarlara isə qorxu hiss etdirməlidir. Dəbdəbəli saç düzümü və zinət əşyaları onları işindən ayıra bilər.

Maraqlıdır, Azərbaycanda qadınların polis işinə maraq göstərməməsinin səbəbi nədir? Bu, mentalitetlə bağlıdır, yoxsa başqa səbəblər var?

**Deputat Çingiz Qənizadə milli mentalitet məsələsinin böyük rol oynadığını bildirdi:** "Yol polisi işçiləri işə götürülərkən onların müəyyən texniki və ya ali təhsili olması önəmlidir. Görünür ki, bu ixtisası qadınlar az seçdiyinə görə Azərbaycanda qadın yol polisi işçilərinə az təsadüf olunur. Onu da deyim ki, bu, çox çətin bir işdir. Günün 8-10 saatını küçədə dayanmaq əziyyətli işdir. Bu gün yol polisi əməkdaşlarının işi olduqca ağırdır. O baxımdan yəqin ki, milli mentalitet məsələsi də var ki, hər hansısa bir kişi öz həyat yoldaşının küçədə dayanıb avtomobillərin hərəkətinin tənzimlənməsi işinə razı da olmaz. Bu baxımdan hesab edirəm ki, bu iş daha çox könüllük əsasındadır, sadəcə olaraq, müraciət edənlər yoxdur. Amma qanunda bununla bağlı hər hansı bir məhdudiyyət yoxdur. Düzü, mən də bunun tərəfdarı deyiləm. Çünki xanımlarımız belə ağır işə layiq deyillər. Onlar daha yaxşı, daha münasib işlərdə işləyə bilərlər"

Ç.Qənizadə xanım yol polislərinə ehtiyac duyulmadığını dedi: "Sürücülərin yoxlanılması proseduru yoxdur. Sadəcə olaraq, sürücülərin testdən keçməsi, yaxud da onların xüsusi yerlərə, xəstəxanalara dəvət olunaraq həkim testindən keçməsi var. Bu baxımdan bir neçə adamın müşayiəti ilə də sürücü gedib testdən keçə bilər. Amma ümumilikdə qadın sürücünün üzəri axtarılmır. Onu polis bölməsinə aparıb yoxlanış edərlər. O zaman da oradakı qadın polis əməkdaşları bu işə cəlb edilə bilər. Mən belə bir şey görməmişəm ki, xanım yol qaydalarını pozduğuna görə onun üzərində axtarış aparılsın. Onun üzərində axtarış ola bilər. O da qanunla tənzimlənir. Xanımlara müraciətim budur ki, Azərbaycan qadınına layiq bir tərzdə davransınlar. Həm sürücülük mədəniyyətini aşılasınlar, həm də sükan arxasına içkili vəziyyətdə oturmasınlar. Onları saxlayan polis əməkdaşlarına qarşı kobudluq etməsinlər".

**Baş Dövlət Yol Polisi İdarəsinin şöbə rəisi Kamran Əliyev yol polisinin xanım olub olmamasının sürücü üçün heç bir fərqi olmadığını dedi:** "Ümumi polisdə xanım polislərə ehtiyac ola bilər. Yoxlama zamanı xanımın xanım polis tərəfindən yoxlanılması düzgündür. Amma yol polisinin xanım olub- olmamasının sürücü üçün nə fərqi var?! Hər ikisinin eyni vəzifəsi, eyni məsuliyyəti var. Belə çıxır ki, xanım yol polisi yolda dayanıb güdməlidir ki, ancaq xanım sürücü gəlsin onu saxlasın?! Bu, düzgün yanaşma deyil. İkinci tərəfdən, bizdə xanım polis işçilərinin sayı azdır. Onlar, sadəcə olaraq, yol polisi işlərinin digər xidmətlərində çalışırlar. Bayır xidməti nisbətən çətin, ağır olduğundan hər keçən avtomobilin buraxdığı zərərli maddələrin insan orqanizminə göstərdiyi mənfi təsiri nəzərə alaraq biz xanım polislərin yolda dayanmalarını rəva bilmirik. Bu çox çətindir. Heç bir xanım tərəfindən bu cür müraciət daxil olmayıb. Ümumilikdə isə xanım əməkdaşlarımızın sayı az deyil. Yol polisi heç kimin üzərini yoxlamır. Hər hansısa bir səbəbdən xanım sürücünün cinayət işində və ya digər məsələlərlə bağlı əgər üzərinə baxış keçirmək lazım olarsa, ora xanım əməkdaş dəvət olunur".

❑ **Günel MANAFLI**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

# Çəkiclə polisin maşınını əzənə cinayət işi qaldırıldı



## Şahin Bəylərov hadisəni törədərkən sərxoş olub və polis avtomobilinə 30 min manatdan çox ziyan vurub

**Fevralın 17-də Bakıda yol polisinin avtomobilini çəkiclə əzən şəxs barəsində cinayət işi başlanıb. Nərimanov Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, faktla bağlı Cinayət Məcəlləsinin 221-ci (xuliqanlıq) maddəsi ilə cinayət işi başlanaraq icraata verilib. Polisdən həmçinin bildirilib ki, hadisəni törədən Şahin Bəylərov saxlanılarkən onun üzərində narkotik vasitə də aşkarlanıb.**

Məlumata görə, Ş. Bəylərov hadisəni törədərkən sərxoş olub və polis avtomobilinə 30 min manatdan çox ziyan vurub. Ş. Bəylərov ilkin ifadəsində törətdiyi hadisəni müxtəlif səbəblərlə izah etməyə çalışıb: "Şahin Bəylərov məsuliyyətdən yayınmaq üçün bir-birinə zidd müxtəlif səbəblər göstərib. Belə ki o, ifadələrindən birində yol polisi əməkdaşının onu təhqir etdiyini, məhz bu səbəbdən də onun avtomobilini əzdiyini deyib. Lakin polis əməkdaşı Şahin Bəylərovu, ümumiyyətlə, tanımadığını, onların arasında hər hansı bir söhbətin olmadığını bildirib".

Qeyd olunub ki, Ş. Bəylərovun psixi durumunda problemlərin olduğu qaçılmazdır. Həkim müayinəsindən sonra bu məsələyə də aydınlıq gətiriləcək.

Xatırladaq ki, Bakıda Heydər Əliyev Mərkəzinin yaxınlığında Şahin Mail oğlu Bəylərov çəkiclə Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinə məxsus BMW markalı, 99 YP 423 dövlət qeydiyyat nişanlı avtomobili əzib. Nəticədə maşına ciddi ziyan dəyib.

Hadisəni törədən Ş. Bəylərov saxlanılıb.

## Elan

**Təcili Hacıqabulda hər bir şəraiti olan- daimi suyu , işıgı, 3 yaşayış evi, böyük tövlələri, yem anbarı, 3 ha meyvə bagı olan ferma, ərazisi 0.5 ha olan yol kənarında yerləşən fermaya bitişik restoranla birgə satılır.**

**Sənədlər qaydasindadır. Qiyməti 150.000 $.**

**Əlaqə nömrəsi : 050-214-40-53**

***

**Amerika və Kanada da təhsil və səyahət üçün bizə muraciət edə bilərsiz**

**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**

## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**